# 525-ci qəzet

17 oktyabr 2012-ci il, çərşənbə, №189 (3745). Qiymətі 20 qəpik

www.525.az


# Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının Toplantısı keçirildi

*İLHAM ƏLİYEV:* "BİZİM TƏŞKİLATIMIZ İQTİSADİ MƏSƏLƏLƏRƏ BAXSA DA, BU GÜN İQTİSADİ MƏSƏLƏLƏRİ GEOSTRATEJİ MƏSƏLƏLƏRDƏN AYIRMAQ OLMAZ. GÜCLÜ İQTİSADİYYAT OLMADAN BİZ MÜSTƏQİL OLA BİLMƏYƏCƏYİK"



Dünən Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) XII Zirvə Toplantısı keçirilib. APA-nın məlumatına görə, tədbirə Azərbaycan Prezidenti İlham Əliyev, Pakistan prezidenti Asif Əli Zərdari, İran prezidenti Mahmud Əhmədinejad, Tacikistan prezidenti Emomali Rahmon, Türkiyənin baş naziri Rəcəp Tayyip Ərdoğan, Özbəkistan parlamentinin sədri İlgozar Sobirov, Qazaxıstan, Qırğızıstan, İordaniyadan yüksək vəzifəli hökumət nümayəndələri qatılıblar.

Tədbirin keçirildiyi Heydər Əliyev Mərkəzinə gələn yüksək səviyyəli qonaqları Azərbaycan Prezidenti İlham Əliyev qarşılayıb. Əvvəlcə tədbirə qatılan prezidentlər xatirə şəkli çəkdiriblər.

İclasda nəqliyyat, kənd təsərrüfatı, energetika və ətraf mühitin mühafizəsi sahəsində regional iqtisadi əlaqələrin inkişafı mövzuları, həmçinin quruma üzv ölkələr arasında inteqrasiyanın dərinləşdirilməsi məsələlər müzakirə olunub.

"İqtisadi Əməkdaşlıq Təşkilatı Şərqlə Qərb arasında strateji regionda yerləşir və bölgə üçün önəmli iş potensialı verən önəmli təşkilat halına gəlib". Bu fikirləri Zirvə toplantısında çıxışı zamanı Türkiyənin baş naziri Rəcər Tayyip Ərdoğan bildirib. Son 20 ildə İƏT coğrafiyasında çox böyük siyasi və iqtisadi dəyişikliklərin baş verdiyini deyən Ərdoğan bu təşkilatın böyük önəm daşıdığını vurğulayıb: "Bu gün beynəlxalq sistemin günün şərtlərinə görə yenidən qurulması lazımdır. Beynəlxalq sferada daha təsirli mexanizmi olmayan beynəlxalq təşkilatların yeri getdikcə çətinləşir. Beynəlxalq böhran birgə fəaliyyət göstərmənin önəmini bir daha ortaya qoydu. ECO olaraq ortaya qoyacağımız ortaq siyasətlər fəaliyyətimizi gücləndirəcək. Biz bölgədə hər sahədə əməkdaşlığın, təhlükəsizliyin gücləndirilməsini istəyirik. Enerji, kənd təsərrüfatı, nəqliyyat və s. kimi müxtəlif sahələrdə regional inkişaf layihələrini həyata keçirməyə çalışırıq". İƏT ölkələrinin iqtisadi göstəricilərinin, ticarət həcminin mövcud potensialı əks etdirmədiyini deyən Ərdoğan deyib ki, ticarət qaydalarının sadələşdirilməsi vacibdir: "Bölgədə ticarətin sadələşdirilməsi ilə bağlı 2003-cü ildə verilmiş 8 illik zaman yetərincə dəyərləndirilməyib". İƏT Ticarət və İnkişaf Bankının təşkilatın layihələrinə önəmli kömək göstərəcəyini deyən Türkiyənin baş naziri bütün üzv ölkələri bu banka ortaq olmağa çağırıb.

Ərdoğan investisiyaların qorunması və təşviqi sazişinin tətbiqinə ehtiyac olduğunu deyib: "Bu anlaşma İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri arasında əlaqələrin möhkəmləndirilməsinə öz töhfəsini verəcək. Nəqliyyat sahəsində potensialın dəyərləndirilməsi üçün tarixi İpək Yolunun canlandırılmasına ehtiyac var. Bu sahədə ECO üzərinə böyük yük düşür. Biz bunu tarixi missiya olaraq görürük".

Baş nazir Türkdilli Ölkələr Şurası və Şimali Kipr Türk Cümhuriyyətinin ECO-ya müşahidəçi qismində qəbul edildiyini deyib. O, Pakistanda 11 yaşlı qıza qarşı törədilmiş terrorun bağışlanmaz olduğunu deyib və bu hərəkəti pisləyib. Eyni hadisənin ötən gün Türkiyədə də yaşandığını vurğulayan Ərdoğan BMT çərçivəsində, xüsusi təşkilat formalaşdıraraq bu cür məsələlərin üzərinə getməyi təklif edib.

*Ardı 3-cü səh.*

## *Oqtay Əsədov:* "BP Azərbaycanda neft hasilatı ilə bağlı öhdəliklərini yerinə yetirəcək"



"BP ilə bağlı məsələni siyasiləşdirmək olmaz". APA-nın məlumatına görə, bu fikirləri parlamentin sədri Oqtay Əsədov Milli Məclisin dünən keçirilən iclasında bildirib.

O, qeyd edib ki, bəzi qüvvələr BP ilə bağlı yerində olan iradları siyasiləşdirmək istəyirlər: "Bu işin məğzindən xəbəri olmayanlar savadsız yazılar yazırlar. Cənab prezident neft hasilatının əlifbasını söylədi. Proqnozlar yerinə yetirilməlidir, bu, elementar məsələdir. Amma 3 ildir ki, proqnozlar, öhdəliklər yerinə yetirilməyib. Bundan şou, siyasi məsələ yaratmaq heç bir azərbaycanlıya şərəf gətirmir. BP Azərbaycanda neft hasilatı ilə bağlı öz öhdəliklərini yerinə yetirəcək, çünki son xəbərdarlığını alıb".

Bu məsələ ilə bağlı deputatlar Zahid Oruc, Sahib Alıyev də çıxış edərək BP ilə bağlı tənqidi fikirlər səsləndiriblər.

## Ərdoğan Əhmədinejadla görüşüb



Dünən Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin dövlət başçılarının 12-ci zirvə toplantısında iştirak edən İran prezidenti Mahmud Əhmədinejadla Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan arasında təkbətək görüş keçirilib.

APA-nın məlumatına görə, görüş əvvəlcədən planlaşdırılmadan baş tutub. İki lider arasında 40 dəqiqə çəkən görüşün detalları barədə ətraflı məlumat verilməyib. Ancaq görüşün baş tutmasına iki səbəb göstərilib. Birincisi, İran böyük bir jest edərək Şipali Kipr Türk Cümhuriyyəti (ŞKTC) ilə bağlı vetosunu geri götürüb və bununla da ŞKTC İƏT-də müşahidəçi statusu alacaq. İkincisi, Əhmədinejad Ərdoğandan əvvəl etdiyi çıxışında Türkiyəyə təşəkkürünü bildirib və beləliklə görüş üçün siqnal verib. Bunun ardından Türkiyənin baş naziri çıxış edib və daha sonra iki lider bir araya gəlib.

## Rusiyadakı Azərbaycan və Ermənistan diaspor rəhbərlərinin Moskvada görüşü keçiriləcək

Oktyabrın 23-də Moskvada Rusiyadakı Azərbaycan və Ermənistan diaspor rəhbərlərinin görüşü keçiriləcək. APA-nın erməni mətbuatına istinadən yaydığı məlumata görə, bu barədə Ümumdünya Erməni Konqresinin rəhbəri Ara Abramyan qurumun İrəvanda keçirilən qurultayında çıxışı zamanı deyib. Onun sözlərinə görə, bu görüş Ermənistanla Azərbaycan arasında mövcud gərginliyi azaltmağa hesablanıb.

Ümumrusiya Azərbaycan Konqresindən isə APA-ya bu görüş haqqında heç bir məlumata malik olmadıqlarını bildiriblər.

## Son üç gündə Balakənddə 66 yeraltı təkan qeydə alınıb

BÖLGƏDƏ DAVAM EDƏN ZƏLZƏLƏLƏRİ ANALİZ ETMƏK ÜÇÜN 5 MOBİL SEYSMİK STANSİYA QURAŞDIRILIB



Respublika Seysmoloji Xidmət Mərkəzi (RSXM) Balakənddə baş verən zəlzələnin episentrindəki prosesləri daha dəqiq analiz etmək üçün ərazidə 5 mobil seysmik stansiya quraşdırıb. Bu barədə APA-ya Mərkəzin baş direktoru Qurban Yetirmişli bildirib. Onun sözlərinə görə, Mərkəzin əməkdaşları tərəfindən ərazidə geniş makroseysmik tədqiqatlar aparılır: "Stansiyalar zəlzələ ocağındakı proseslərlə bağlı daha dəqiq məlumatlar əldə etməyə və ən xırda təkanları belə qeydə almağa imkan verəcək. Stansiyalar proses başa çatana qədər burada qalacaq".

Q.Yetirmişli deyib ki, oktyabrın 14-dən bu günə qədər Balakənddə 66 yeraltı təkan qeydə alınıb. Bu təkanlardan 4-5-i hiss olunan olub. Ərazidə seysmik aktivlik hələ davam eləyir.


www.mkm.az

**MİLLİ KİTAB MÜKAFATI ƏSƏRLƏRİN QƏBULUNU ELAN EDİR.**

Müsabiqəyə həcmi 40 000 işarədən az olmayan bədii əsərlər (povestlər, romanlar, hekayə topluları) qəbul olunur.

Uzun siyahı ("lonqlist", 20 ən yaxşı əsər) **2013-cü il martın 1-də** elan ediləcək.
Qısa siyahı ("şortlist", 10 ən yaxşı əsər) **2013-cü il, martın 15-də** elan ediləcək.

*Qaliblərə pul mükafatı təqdim olunacaq:*
1-ci yer – **3000 manat**
2-ci yer – **2000 manat**
3-cü yer – **1000 manat**

*Əlavə nominasiyalar:*
Ən yaxşı şeir (həcmi 100 sətirdən az olmamaqla) – mükafat **300 manat**
Ən yaxşı uşaq nağılı – mükafat **300 manat**
Ən yaxşı gənc yazar – mükafat **300 manat**

**Qəbul 2012-ci il, noyabrın 16-na qədər davam edəcək. Qaliblərin adı isə 2013-cü il, iyunun 4-də elan olunacaq.**

*Əsərlər Z.Tağıyev küçəsi 19 ("Əli və Nino" kitab dükanı, tel.: 4930412), eləcə də, info@mkm.az ünvanında qəbul olunur.*

MKM-in baş sponsoru Bakcell şirkəti, rəsmi sponsoru Bank Respublika QSC

bakcell Bank Respublika sizə faydalı Ali&Nino


## Gürcüstanda yeni hökumətin yekun tərkibi elan edilib



Gürcüstanda keçirilmiş parlament seçkilərində qalib gələn "Gürcü Arzusu" siyasi koalisiyasının lideri Bidzina İvanişvili yeni hökumətin yekun tərkibini elan edib.

APA-nın Gürcüstan xəbər agentliklərinə istinadən verdiyi məlumata görə, yeni Nazirlər Kabineti aşağıdakı kimidir:

Baş Nazir — Bidzina İvanişvili

Daxili işlər naziri — İrakli Qaribaşvili

Xarici işlər naziri — Maya Pancikidze

Müdafiə naziri — İrakli Alasaniya

Ədliyyə naziri — Teya Sulukiani

Səhiyyə və sosial müdafiə naziri — David Sergenko

Regional inkişaf və infrastruktur naziri — David Narmaniya

Cəzaların icrası, hüquqi yardım və probasiya naziri — Sozar Subari

Diaspora işləri üzrə dövlət naziri — Kote Surquladze

Kənd təsərrüfatı naziri — David Kirvaladze

Avropa və avroatlantik inteqrasiya naziri — Aleksi Petriaşvili

Mədəniyyət və abidələrin mühafizəsi naziri — Quram Odişaria

Reinteqrasiya üzrə dövlət naziri — Paata Zakareişvili

Gənclər və idman naziri — Levan Kipiani

Maliyyə naziri — Nodar Xaduri

Ətraf mühitin mühafizəsi naziri — Ona Qoqoladze

Təhsil naziri — Georgi Marqvelaşvili

Energetika naziri — Kaxa Kaladze

İqtisadiyyat naziri — Georgi Kvirikaşvili

Qaçqınların işləri üzrə nazir — David Daraxvelidze.

Yeni parlamentin ilk iclası oktyabrın 20-21-də Kutaisi şəhərində keçiriləcək.

## ABŞ dövlət katibinin müavini Ermənistana səfər edəcək

ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Erik Rubin Ermənistana səfər edəcək. APA-nın Ermənistan mətbuatına istinadən xəbərinə görə, E.Rubin oktyabrın 18-də keçiriləcək iqtisadi məsələlər üzrə ABŞ-Ermənistan işçi qrupunun iclasında iştirak edəcək.

Qeyd edək ki, E.Rubin oktyabrın 15-də Azərbaycanda səfərdə olub və bir sıra görüşlər keçirib.

## Suriyada münaqişədə həlak olanların sayı 30 minə çatıb

Suriyada 2011-ci ilin martından davam edən hökumət və müxalifətin silahlı qarşıdurmasında ölənlərin sayı 30 min nəfərə çatıb. Bu barədə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Ceffri Feltman məlumat verib. Feltman münaqişənin getdikcə daha geniş miqyas aldığını bildirib. "Bu ərəb ölkəsindəki vəziyyət onu göstərir ki, böhranın hərbi həlli yoxdur", deyə Feltman bəyan edib.

Xatırladaq ki, "Syrian Observatory for Human Rights" hüquq müdafiəsi təşkilatı Suriyada münaqişə başlanandan 33 min nəfərin öldüyünü bildirmişdi.

# Təhsil işçilərinə prezident sərəncamı ilə layiq görüldükləri mükafatlar təqdim edilib

Dünən Təhsil Nazirliyində Prezident İlham Əliyevin sərəncamları ilə Beynəlxalq Müəllim günü ərəfəsində medal və fəxri ada layiq görülən təhsil işçilərinə mükafatların təqdim olunması mərasimi keçirilib.

Tədbir iştirakçılarını salamlayan təhsil naziri Misir Mərdanov hər il olduğu kimi bu il də Prezident İlham Əliyevin sərəncamları ilə bir qrup təhsil işçisinin peşə bayramları ərəfəsində "Tərəqqi" medalı və "Əməkdar müəllim" fəxri adı ilə təltif edildiyini bildirib. Ulu öndər Heydər Əliyevin müəllim əməyini yüksək dəyərləndirdiyini, təhsil işçilərinə xüsusi hörmət və ehtiramla yanaşdığını söyləyən nazir dahi şəxsiyyətin müəllim haqqında söylədiyi qiymətli fikirləri mərasim iştirakçılarının diqqətinə çatdırıb.

M. Mərdanov təhsil sahəsində əldə olunan uğurlara toxunaraq ölkə başçısı cənab İlham Əliyev tərəfindən Azərbaycan təhsilinin, elminin inkişafına, müəllimlərə göstərilən diqqət və qayğıdan söz açıb. Son illərdə fəxri ad və medallara layiq görülənlərlə bağlı statistik rəqəmləri nəzərə çatdıran təhsil naziri bütün bunlara görə təhsil işçiləri adından ölkə başçısına minnətdarlığını bildirib.

Nazir qeyd edib ki, ölkə başçısının sərəncamları ilə Beynəlxalq Müəllim günü ərəfəsində Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə 58 nəfər təhsil işçisi "Tərəqqi" medalı ilə təltif olunub, 65 nəfərə "Əməkdar müəllim" fəxri adı verilib.

Çıxışının sonunda təltif olunan bütün təhsil işçilərini təbrik edən təhsil naziri onlara işlərində yeni-yeni uğurlar arzulayıb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyev dövlət büdcəsindən təhsilə ayrılan vəsaitlərin ilbəil artdığını söyləyərək ölkə başçısı cənab İlham Əliyev tərəfindən Azərbaycan təhsilinin inkişafına, təhsil işçilərinə göstərilən qayğıdan söz açıb.

Sonra təltif olunan təhsil işçilərinə mükafatlar təqdim olunub, xatirə şəkli çəkdirilib.

**S.QARAYEVA**

# "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrinin qalibləri təltif olunub

Dünən Təhsil Nazirliyində "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrinin Təşkilat Komitəsinin yekun iclası keçirilib.

İclası təhsil naziri, "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrinin Təşkilat Komitəsinin sədri Misir Mərdanov açaraq son 5 ildə hər iki müsabiqənin uğurla keçirildiyini diqqətə çatdırıb. Nazir bu il də "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələri qaliblərinin seçilməsi prosesini obyektivlik və şəffaflıq şəraitində apardıqlarına görə Təşkilat Komitəsinin üzvlərinə təşəkkürünü bildirib.

M.Mərdanov Pezident İlham Əliyevin "Ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında" 2007-ci il 4 sentyabr tarixli sərəncamına əsasən keçirilən müsabiqələrin mərhələləri haqqında məlumat verib. Nazir müsabiqə qaliblərinin topladıqları balların yekununa görə müəyyən olunduğunu qeyd edib, habelə hər iki müsabiqənin ölkə təhsilinin inkişafı prosesinin stimullaşdırılması baxımından əhəmiyyətinə toxunub.

"Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin yekunlarından bəhs edən təhsil naziri müsabiqədə iştirak üçün respublikanın əksər bölgələrini təmsil edən 151 məktəbin müraciət etdiyini söyləyib. M.Mərdanov əvvəlki illərdə olduğu kimi, bu il də müsabiqə iştirakçıları arasında Bakı məktəblərinin üstünlük təşkil etdiyini vurğulayıb və sənədlərin ekspertizasından sonra 111 məktəbin müsabiqənin II mərhələsinə buraxıldığını nəzərə çatdırıb.

Müsabiqənin hər üç mərhələsinin yekununa görə 47 məktəbin qalib gəldiyini (3 məktəb Naxçıvan MR üzrə seçilir) söyləyən təhsil naziri ilk 10 yeri tutan məktəblərin adlarını sadalayıb. Nazir builki müsabiqəyə Mingəçevir və Naftalan şəhərlərindən, Lənkəran, Ağdam, Balakən, Qobustan, Qubadlı, Daşkəsən, Zəngilan, Yardımlı, Kəlbəcər, Goranboy, Laçın, Lerik, Tərtər, Saatlı, Xocalı, Xocavənd, Şuşa rayonundan məktəblərin qatılmamasından təəssüfləndiyini bildirib.

Daha sonra M.Mərdanov "Ən yaxşı müəllim" müsabiqəsi üzrə bir sıra məlumatları diqqətə çatdırıb, müsabiqədə iştirak etmək üçün 464 nəfər müəllimin sənəd təqdim etdiyini bildirib. Ekspertizanın nəticələrinə görə, daha çox bal topalayan 231 nəfərin növbəti mərhələdə iştirak etmək hüququ qazandığı haqda məlumat verən nazir müsabiqə iştirakçılarının fənlər üzə tərkibini də açıqlayıb. Təhsil naziri qeyd edib ki, müsabiqənin hər üç mərhələsinin balları əsasında müəllimlərin yekun balı müəyyən edilib və ən yüksək nəticə göstərən 95 nəfər müəllim (5 nəfər müəllim Naxçıvan MR üzrə seçilir) qalib gəlib.

Sonda "Ən yaxşı ümumtəhsil məktəbi", eləcə də "Ən yaxşı müəllim" müsabiqələrinin qalibləri təltif olunub, məktəb rəhbərlərinə, müəllimlərə sertifikat və vəsiqələr təqdim edilib.

**S.QARAYEVA**

# "Elm və Texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı" Abel Məhərrəmova veriləcək

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) "Elm və Texnologiya sahəsində 2012-ci ilin İSESCO mükafatı"nın Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova verilməsi haqqında qərar qəbul edib.

BDU-nun Mətbuat və informasiya şöbəsindən verilən məlumata görə, bu prestijli mükafat akademik Abel Məhərrəmova Kimya (nanomateriallar və nanotexnologiyalar) sahəsindəki böyük uğurlarına görə verilib.

Sertifikat, qızıl medal və puldan ibarət mükafat 20-21 noyabr 2012 tarixlərində Sudanın Xartun şəhərində keçiriləcək "Ali Təhsil və Elmi Tədqiqatlar Nazirlərinin altıncı İslam Konfransı"nın çərçivəsində təqdim ediləcək. "Elm və Texnologiya sahəsində mükafat" İSESCO tərəfindən təşkilatın üzvü olan 56 ölkə üzrə sosial-iqtisadi əhəmiyyətli elmi-texniki problemlərin həll olunması uğrunda görülən mühüm işləri mükafatlandırmaq və innovativ istedadlı insanları təşviq etmək məqsədilə 2008-ci ildə təsis edilib. Həmin mükafat 2 ildən bir — biologiya, kimya, geologiya, riyaziyyat və fizika sahələrində əldə edilən nailiyyətlərə görə 56 ölkə üzrə yalnız 1 nəfərə verilir. Akademik Abel Məhərrəmov bu mükafata layiq görülən ilk azərbaycanlı alimdir.

Məlumatda bildirilib ki, İslam Təhsil Elm və Mədəniyyət Təşkilatı (İSESCO) 1979-ci ildə İslam Konfransı Təşkilatı tərəfindən təsis edilib. Təşkilatın baş qərargahı Rabat (Mərakeş) şəhərində yerləşir. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva bu təşkilatın xoşməramlı səfiridir.

**S.QARAYEVA**

# Növbəti tədris ili üçün qəbul imtahanları proqramlarının müzakirəsi başlanıb




Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) növbəti tədris ili üçün qəbul imtahanları proqramlarının müzakirəsinə start verilib.

TQDK-nın mətbuat xidmətindən verilən məlumata görə, dünəndən başlayaraq Komissiyada fənlər üzrə elmi-metodiki seminarlara start verilib. Seminarlarda növbəti tədris ili üçün qəbul imtahanlarının proqramları, mərkəzləşmiş buraxılış imtahanlarının nəticələri müzakirə ediləcək, abituriyentlərin test tapşırıqlarına verdikləri cavabların statistikası əsasında araşdırmalar aparılacaq. Artıq Komissiya tərəfindən elmi-metodiki seminarların qrafiki müəyyən olunub. Seminarlara TQDK-nın regional bölmələrinin əməkdaşları da canlı bağlantı vasitəsilə qoşula biləcəklər. İlk seminarlar ali təhsil müəssisələrinin magistratura səviyyəsinə xarici dillər (ingilis, alman, fransız, rus, ərəb və fars dilləri) və Azərbaycan dili, xarici dil (ingilis, alman, və fransız dilləri) üzrə keçiriləcək.

Məlumatda bildirilib ki, seminarlar bütün ali və orta məktəb müəllimlərinin, təhsil üzrə ekspertlərin üzünə açıqdır. Arzu edənlər seminarlarda iştirak edərək təkliflərini səsləndirə bilərlər.

**S.QARAYEVA**

## Dönər satışı ilə bağlı monitorinqlər aparılacaq



Respublika Gigiyena və Epidemiologiya Mərkəzi (RGEM) ilə Standartlaşdırma Metrologiya və Patent üzrə Dövlət Komitəsi (SMPDK) sabah Bakıda dönər satışı ilə bağlı monitorinqlərə başlayacaq. Bu barədə APA-ya RGEM-in qidalanma bölməsinin müdiri İmran Abdullayev bildirib. Onun sözlərinə görə, dönər istehsalında keyfiyyətsiz və mənşəyi məlum olmayan ətlərdən istifadə və sanitariya qaydalarının kobud şəkildə pozulması hallarına rast gəlinir. İ.Abdullayev deyib ki, çiy dönərin hazırlanması üçün gigiyenik və uyğunluq sertifikatının olması vacibdir. Monitorinqlər zamanı həmin sənədlər yoxlanılacaq və həmçinin müayinələrin aparılması üçün çiy və bişmiş dönərlərdən nümunələr götürüləcək: "Sertifikatı olmayan müəssisələr və sahibkarlar dönər kababının satışı ilə məşğul ola bilməyəcəklər. Belə müəssisələrin fəaliyyəti dayandırılacaq".

İ.Abdullayev onu da qeyd edib ki, DSMPDK tərəfindən bişmiş dönər kababının texniki şərtləri hazırlanıb: "Biz də komitəyə öz təkliflərimizi vermişik. Yaxın günlərdə həmin standartlar qəbul olunacaq".

## Avtomobil oğurluğu ilə məşğul olan dəstə zərərsizləşdirilib

Bakıda avtomobil oğurluğu ilə məşğul olan dəstə zərərsizləşdirilib. Bakı şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, sentyabrın 5-ə keçən gecə Zığ yolu küçəsində yaşayan Hacıməhəmməd Sulxayevə məxsus "VAZ-21011" markalı avtomobil qaçırılıb. Xətai Rayon Polis İdarəsinin Cinayət Axtarış Şöbəsi və 36-cı Polis Bölməsi əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində avtomobil bir gün sonra Bakıxanov qəsəbəsində sökülmüş vəziyyətdə tapılıb, onu qaçıran Masallı rayon sakini Qiyaməli Bayramov və Bakı şəhər sakini Pərviz Quliyev sentyabrın 6-da yaxalanıblar. Cinayətin digər iştirakçısı olan Bakı şəhər sakini Tural Qasımov isə oktyabrın 15-də ələ keçib.

Araşdırma zamanı müəyyən edilib ki, onlar sentyabrın 4-ə keçən gecə M.Gülgün küçəsində yaşayan İbrahim Şahbazova, sentyabrın 6-a keçən gecə Vaqif Həsənova məxsus "VAZ-2101" markalı avtomobil qaçırıblar. Dəstə üzvləri iyunun 24-ə keçən gecə R. Məmmədov küçəsində yaşayan Çərkəz Bayramova məxsus "VAZ-2106" markalı avtomobili də qaçırıb və həmin avtomobil elə həmin gün saat 14:30 radələrində Ə. Bağırov küçəsində tam yanmış vəziyyətdə tapılıb.

## İlin sonunda müəlliflik hüququ obyektlərinə nəzarət markalarının yapışdırılmasına başlanacaq

Azərbaycanda bu ilin sonunda müəlliflik hüququ obyektlərinə nəzarət markalarının yapışdırılmasına başlanacaq. Bunu APA-ya Müəllif Hüquqları Agentliyinin (MHA) hüquq şöbəsinin müdiri Xudayat Həsənli deyib. Onun sözlərinə görə, artıq "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılıq haqqında"qanun qüvvəyə minib. Qanunun tam tətbiqi üçün müəlliflik hüququ obyektlərinə nəzarət markalarının verilməsi ilə bağlı qaydalar təsdiq olunmalıdır. Hazırda bu qərar layihəsi müvafiq qurumlarda müzakirə olunur və yaxın vaxtlarda layihənin yekun variantı Azərbaycan Nazirlər Kabineti tərəfindən təsdiq olunacaq. Layihə tam təsdiq edildikdən sonra kitablara, fonoqramlara, kompüter proqramlarının nüsxələrinin yazıldığı maddi daşıyıcılara və məlumat toplularının nüsxələrinə yapışdırmaq üçün nəzarət markalarının verilməsinə başlanacaq: "Artıq nəzarət markalarının hazırlanması və çapı üçün Agentlik tərəfindən texniki və təşkilati tədbirlər həyata keçirilib. Əvvəl buraxılan nəşrlər üçün keçid markalarının (tranzit markaları) tətbiq olunması və onların pulsuz verilməsi nəzərdə tutulur. Hələlik bu məsələ hökumətdə müzakirə olunur. Yekun qərar verildikdən sonra ictimaiyyətə əlavə məlumat veriləcək".

# Rafiq Tağının ailə üzvləri Vilayət Eyvazovla görüşüblər

Mərhum yazıçı-publisist Rafiq Tağının ailə üzvləri daxili işlər nazirinin müavini Vilayət Eyvazovla görüşüblər. Bu barədə APA-ya Rafiq Tağının qardaşı İlqar Tağıyev məlumat verib. İ.Tağıyev deyib ki, görüşdə qardaşının ölümü ilə bağlı cinayət işi üzrə aparılan istintaqın gedişindən narazı olduqlarını bildiriblər: "Biz bir müddət əvvəl Prezident İlham Əliyevə müraciət etmişik. Müraciətdə qətlin təşkilatçılarının və qatilin bu günə qədər tapılmamasından narahat olduğumuzu bildirmişik. Həmçinin, həkimlərin məsuliyyəti məsələsinin unutdurulduğunu bildirmişik. Həmin məsələləri biz Vilayət Eyvazovla görüşdə də vurğuladıq" .

## Məhkumlar telefonla danışa biləcəklər



Dünən Milli Məclisdə Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib ki, vaxtilə bu məcəlləyə Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən məhkumların yazışması məsələsi daxil edilmişdi. İndi isə bu yöndə daha bir mütərəqqi addım atılaraq onların telefonla danışmasına icazə verilir. Ə.Hüseynlinin sözlərinə görə, müəyyən müddətə azadlıqdan məhrum edilən şəxslər həftədə iki dəfə, ömürlük azadlıqdan məhrum edilən şəxslər isə həftədə bir dəfə 15 dəqiqə olmaqla telefonla danışmaq hüququ qazanırlar. Şəhərlərarası telefon danışıqlarının haqqı məhkumun şəxsi vəsaiti hesabına və ya yaxın qohumu tərəfindən ödənilir. Texniki imkanlar olmadıqda bir telefon danışığı bir qısa müddətli görüşlə əvəz edilə bilər: "Cinayətin təqibinin, cəzanın icrası prosesində ictimai qaydanın, təhlükəsizliyin və rejim tələblərinin təmin edilməsi, yeni cinayətlərin və digər hüquqpozmaların törədilməsinin qarşısının alınması, onlardan zərərçəkmiş şəxslərin müdafiəsi zərurəti yarandıqda cəzaçəkmə müdriyyətinin əsaslandırılmış qərarı ilə məhkumların telefon danışıqlarına nəzarət edilir.Eyni zamanda, tənbeh tədbiri kimi intizam və ya cərimə təcridxanalarında, kamera tipli otaqlarda və bir nəfərlik kameralarda saxlanılan məhkumların telefon danışıqlarına yalnız müstəsna hallarda icazə verilə bilər. Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumlar arasında yaxın qohumlar istisna olmaqla, telefon danışıqlarına icazə verilmir".

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

**Kamil HƏMZƏOĞLU**

# İranda 5 nəfər edam edilib

İranın Təbəs və İsfahan şəhərlərində 5 nəfər edam edilib. APA-nın məlumatına görə, narkotik maddələrin qaçaqmalçılığında təqsirləndirilən bir məhbus İsfahan, 4 nəfər isə Təbəs şəhərində həbs olunub. İsfahanda həbs edilən şəxsin üzərindən 16,7 kq, Təbəs zindanında saxlanılan 4 nəfərdən isə ümumilikdə 330 kq narkotik maddə götürülüb. Birlikdə həbs edilən 4 nəfər 7 dəvə karvanı ilə qaçaqmalçılıqla məşğul olub.

Yerli məhkəmənin çıxardığı ölüm hökmü İranın Ali Məhkəməsi tərəfindən təsdiqlənəndən sonra İsfahan və Təbəs həbsxanalarında icra edilib.

## Oktyabrın 17-də "Bank Standard"ın "Kartla ödə, "Apple" qazan!" aksiyasının IV mərhələsinin qalibləri müəyyən olunacaq

### QALİBLƏRİN HƏR BİRİNƏ "MAKBOOK AİR" NOUTBUKLARI TƏQDİM OLUNACAQ




Oktyabrın 17-də "Bank Standard"ın Azərbaycan prospekti, 4 ünvanında yerləşən baş ofisində "Kartla ödə, Apple qazan!" aksiyasının IV mərhələsinin uduş fondunun lotereyası keçiriləcək. Hər iştirakçı topladığı lotereya lotlarının ümumi sayını kartının nömrəsi ilə bankın saytı www.bankstandard.com vasitəsilə öyrənə bilər.

Xatırladaq ki, ötən ilin 16 oktyabr və 2012-ci ilin 30 sentyabr tarixləri arasında 4 mərhələdən ibarət olmaqla keçirilən "Kartla ödə, "Apple" qazan!" aksiyası "Bank Standard" tərəfindən buraxılmış bütün kartların sahiblərini əhatə edirdi.

Aksiya müddəti ərzində bankın müştəriləri öz kartlarından istifadə edib POS-terminal, bankomat (ATM), "Mobile Banking" xidməti vasitəsilə, habelə İnternetdə ödənilmiş məbləğlərin hər 10 şərti vahidi (manat, USD, GBP, EUR) müqabilində bir lotereya şansı əldə edə bilərdilər. Lotereya şansları kart vasitəsilə ödənişlərlə yanaşı, "Bank Standard"ın kart məhsullarını əldə etmək müqabilində də verilirdi.

Bankın uduşlu aksiyaları haqda daha ətraflı məlumatı www.bankstandard.com/az/campaigns/08/ saytından, bankın Məlumat mərkəzinin 158 nömrəsindən (gecə-gündüz), eləcə də www.facebook.com/BankStandard.KB səhifəsindən əldə etmək olar.

# Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının Toplantısı keçirildi

**_İLHAM ƏLİYEV:_ "BİZİM TƏŞKİLATIMIZ İQTİSADİ MƏSƏLƏLƏRƏ BAXSA DA, BU GÜN İQTİSADİ MƏSƏLƏLƏRİ GEOSTRATEJİ MƏSƏLƏLƏRDƏN AYIRMAQ OLMAZ. GÜCLÜ İQTİSADİYYAT OLMADAN BİZ MÜSTƏQİL OLA BİLMƏYƏCƏYİK"**

*(Əvvəli 1-ci səh.)*



"Bəzi ölkələrdə islamafobiya meyllərinin güclənməsi, İslam müqəddəslərinin təhqir edilməsi bizi narahat edir, hiddətləndirir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən XII zirvə toplantısında açılış nitqində söyləyib. Prezident İlham Əliyev Azərbaycanın ECO-nun fəaliyyətinin genişləndirilməsi üçün əlindən gələni edəcəyini bildirib: "Bu zirvə görüşü çox əlamətdar tarix ərəfəsində baş verir. 1992-ci ilin noyabrında ECO-ya 7 yeni üzv daxil olub ki, onlardan biri də Azərbaycan idi. Azərbaycan öz fəaliyyətində ECO-ya daim böyük önəm verib. Bizi həm ortaq tarix, həm də siyasi və iqtisadi maraqlar birləşdirir. Hesab edirəm ki, təşkilatımızın bu tarixi irs üzərində formalaşması böyük ənənədir.

Biz çalışırıq ki islam mədəniyyətinin təbliği istiqamətində fəaliyyətimizi gücləndirək. 2018-ci ildə Azərbaycanın Naxçıvan şəhəri islam mədəniyyəti paytaxtı olacaq".

Prezident ötən il Azərbaycanın ECO-ya üzv dövlətlərin də dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildiyini xatırladıb: "Azərbaycan da öz növbəsində ECO-ya üzv dövlətlərin maraqlarının beynəlxalq təşkilatlarda qorunmasında səylərini göstərir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ECO-ya üzv ölkələrin mövqeyini yüksək qiymətləndiririk".

Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən prezident bildirib ki, münaqişə nəticəsində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb: "Ermənistan BMT-nin məlum qətnamələrini yerinə yetirmir. 1992-ci ildə ermənilər tərəfindən Xocalı soyqırımı törədilib. Artıq üç dövlət bu soyqırımı rəsmən tanıyıb və onlardan biri ECO-ya üzv ölkə Pakistandır. Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu olmayıb və ola da bilməz. Əlbəttə ki, bu işğal və ədalətsizlik bizim iqtisadiyyatımıza da zərbə vurub".

Dövlət başçısı çıxışında Azərbaycandakı iqtisadi və sosial inkişafdan da danışıb: "İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə ticarət dövriyyəsi 2011-ci ildə 38, cari ilin 9 ayında isə 20 faiz artıb. Azərbaycan ECO Bankın səhmdarıdır və üzv ölkələrdə həyata keçirilən vacib layihələrdə həm bank vasitəsi ilə, həm də investor kimi iştirak etmək niyyətindədir. Biz yeni bazarlara çıxmaq üçün araşdırma işləri aparırıq. İnvestisiya yatırmaq üçün özümüzə dost-qardaş bildiyimiz ölkələrə üz tuturuq".

Prezident bildirib ki, malik olduğu coğrafi mövqe Azərbaycanın nəqliyyat sahəsində regional mərkəzə çevrilməsinə imkan verir: "Bu yaxınlarda tikintisi başa çatacaq Bakı-Tiflis-Qars dəmir yolu İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələri birləşdirəcək".

"Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin işə düşməsi İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri arasında ticarət dövriyyəsinin inkişafına təkan verəcək". Bu fikirləri İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən XII Zirvə Toplantısında çıxışı zamanı Tacikistan prezidenti Emomali Rahmon bildirib. E. Rahmon deyib ki, İqtisadi Əməkdaşlıq Təşkilatı nəqliyyat dəhlizlərinin diversifikasiyası üçün əhəmiyyət daşıyan belə layihələrin koordinasiyası ilə məşğul olmalıdır. Eyni zamanda enerji sahəsində problemlərin həlli istiqamətində işlər həyata keçirməlidir. Tacikistan prezidenti bildirib ki, Əfqanıstanın yenidən qurulması prosesində iştirak edən mütəxəssislərin hazırlanması üçün rəsmi Düşənbə ölkə ərazisində mərkəzin yaradılmasını təklif edir.

"Biz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr olaraq əlaqələrimizin sıxlaşdırılması, baxışların reallaşması üçün çalışmalıyıq". Bu fikirləri İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Bakıda keçirilən XII Zirvə Toplantısında çıxışı zamanı Pakistan prezidenti Asif Əli Zərdari səsləndirib. Pakistan prezidenti deyib ki, ECO ölkələrini tarixi və mədəni bağlar birləşdirir. Zərdari regionun inkişafına üç əsas təhdidin olduğunu söyləyib: "Bunlardan birincisi terrorçuluq, ikincisi savadsızlıq və yoxsulluq, üçüncüsü insanlarımızın hüquqlarının pozulmasıdır". Prezident Pakistanda 11 yaşlı qıza qarşı törədilmiş sui-qəsddən danışıb və deyib ki, bu cür hallar regionun gələcəyinə olan təcavüzdür: "Biz uşaqları öldürənlərə qarşı təqibləri davam etdirməliyik. Heroin ticarətinin qarşısının alınmasını təşkil etmək lazımdır. Bu da terrorçuluğa kömək olur".

Toplantıda çıxış edən İran prezidenti Mahmud Əhmədinejad İqtisadi Əməkdaşlıq Təşkilatının Siyasi Forumunun yaradılmasını təklif edib. Siyasi əməkdaşlığı, regional təşkilatlarda əməkdaşlığı davam etdirməyin vacibliyinə toxunan İran prezidenti bir sıra təkliflərlə çıxış edib. O bildirib ki, iqtisadi sahədə əməkdaşlığa nail olmaq, gömrük qanunvericiliyinin yaradılması, su, quru, hava və dəmir yolu nəqliyyat xətlərinin inkişafı layihələrinin həyata keçirilməsi, ədalətli iqtisadiyyat prinsiplərinin yaradılması, milli valyutaların ticarət dövriyyələrində istifadəsi kimi işlərin həyata keçirilməsi vacibdir: "Kapitalist sistemi və köləlik, müstəmləkəçilik tərəfdarları öz tarixlərinin sonuna gəlib çıxıblar. Biz artıq yeni sistemin qurulması ərəfəsindəyik. Biz ruhani inanclar və qardaşlıq hisslərinə əsaslanaraq böyük işlər görə bilərik. Biz güclərimizi birləşdirərək indiki dünya sisteminin dəyişdirilməsinə, xalqlarımızın sülh və rifah içində yaşamasına xidmət edə bilərik".

Sonra İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) XII Sammitinin yekununa dair Bakı Bəyannaməsi qəbul olunub.APA-nın məlumatına görə, sənədin qəbulundan sonra ECO mükafatlarının təqdim olunması mərasimi keçirilib. Müxtəlif sahədə elmi-tədqiqat işlərinə görə ECO mükafatı 8 ölkədən 24 nəfərə verilib. Azərbaycandan iqtisadiyyat sahəsi üzrə bu mükafat Asəf Nadirova təqdim olunub.

Əldə olunan razılaşmaya əsasən, İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti toplantısı gələn il Pakistanda keçiriləcək.

Sammitin bağlanış mərasimində çıxış edən Prezident İlham Əliyev ECO-nun inkişaf edəcəyinə ümid etdiyini deyib: "Bizim təşkilatımız iqtisadi məsələlərə baxsa da, bu gün iqtisadi məsələləri geostrateji məsələlərdən ayırmaq olmaz. Bizim ümumi səylərimiz ümumi uğurlara gətirəcək. Güclü iqtisadiyyat olmadan biz müstəqil ola bilməyəcəyik". Prezident bildirib ki, Azərbaycan sədr olaraq növbəti illərdə təşkilatın inkişafına öz töhvəsini verəcək.

Bununla da İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə Toplantısı başa çatıb.

## _Eldar Sabiroğlu:_ "Sabir Rüstəmxanlının çıxışından təəssüf edirik"



"Deputat Sabir Rüstəmxanlının Milli Məclisin iclasında ordumuz haqqında çıxışından çox təəssüf edirik. Əlbəttə ki, bunu heç kəsə qadağa etmək olmaz, xüsusilə də parlament üzvünə. Ancaq son illər Silahlı Qüvvələrimizdəki uğurları inkar etmək heç də ədalətli tənqid kimi qəbul edilə bilməz". Bu fikirləri mətbuat xidmətinin rəisi, polkovnik Eldar Sabiroğlu APA-nın sualına cavabında millət vəkili Sabir Rüstəmxanlının parlamentdə çıxışına münasibət bildirərkən deyib. "Görünür, deputat Sabir Rüstəmxanlının ordudakı mövcud vəziyyət barədə real təsəvvürləri yoxdur. O, bu boşluğun yerini doldurmaq üçün digər deputatlar kimi Müdafiə Nazirliyinə müraciət edib cəbhə zonasında yerləşən hərbi hissələrə gedə bilərdi. Lakin bu illər ərzində bir dəfə də olsun ondan belə bir təklif almamışıq. İndi böyük kürsüdən ordu haqqında mənfi təəssürat yaratmağa cəhd göstərir. Özünün təbiri ilə yanaşsaq, guya ki tənqid edir. Xatırlatmaq istərdik ki, əsgərlərimiz heç də onun dediyi kimi cəbhədə unudulmayıb. Onların yaşayış şəraiti, xidməti fəaliyyətləri daim komandir heyətinin diqqət mərkəzindədir. Ordumuza həm dövlət səviyyəsində böyük diqqət var, həm də son illər aparılan müsbət işlərin nəticəsi olaraq cəmiyyətlə Silahlı Qüvvələrimiz arasında qırılmaz bir bağ yaranıb. Bununla fəxr etmək əvəzinə əsassız sözlərlə ictimai fikri başqa səmtə yönəltməyə gərək yoxdur. Ordunun mövqeyi birdir — dövlətimizin və millətimizin təhlükəsizliyini qorumaq. Ordunun başlıca vəzifəsi isə işğal olunmuş torpaqları qəsbkarlardan azad etməkdir. Ola bilsin ki, bəziləri buna şübhə ilə yanaşsın, ancaq bu mütləq baş verəcəkdir. Özü də bu zaman uzaqda deyil. Müxtəlif zamanlarda, müxtəlif mövqelər nümayiş etdirən şəxslərin belə buna inanmasını rica edərdim". Qeyd edək ki, millət vəkili Sabir Rüstəmxanlı Milli Məclisin bu gün keçirilən iclasında millət vəkillərini, ziyalıları cəbhədə əsgərlərlə ünsiyyətdə olmağa çağırıb: "Sanki əsgərlərimiz cəbhədə unudulub. Mən cəbhə bölgəsində oldum, komandiri bir saat tapa bilmədim. Milli Məclisdə komissiya yaradıb, cəbhə bölgəsinə göndərmək lazımdır. Rəsmi səviyyədə orduya diqqət var, ictimaiyyətin də orduya diqqəti artmalıdır".

## Saxta yolla kredit verənlər barədə cinayət işi açılıb

"İcraçı Kredit Agentliyi" MMC Bank olmayan Kredit Təşkilatı və "Astara Kredit İttifaqı" MMC-də yol verilmiş qanunsuzluqlarla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində araşdırma aparılıb. Baş Prokurorluğun mətbuat xidmətindən 525.az-a verilən məlumata görə, müəyyən edilib ki, qeyd edilən cəmiyyətlərin vəzifəli şəxsləri 2010-cu ilin sentyabr ayında 2 nəfər Astara sakininin hər birinə müraciətləri əsasında 3 min manat məbləğində istehlak krediti vermələrinə baxmayaraq, sonradan vətəndaşlardan xəbərsiz kredit üçün girov qismində təqdim olunmuş ev və torpaq sahələrinin sənədlərindən istifadə etməklə onların adına saxta yolla 59 min manat məbləğində kredit rəsmiləşdiriblər. "İcraçı Kredit Agentliyi" MMC Bank olmayan Kredit Təşkilatı və "Astara Kredit İttifaqı" MMC-nin vəzifəli şəxsləri barəsində Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

## Nazir müavinləri Moskvada görüşüb

Moskvada Azərbaycanın və Rusiyanın xarici işlər nazirlərinin müavinləri Xələf Xələfov və Qriqori Karasin arasında görüş keçirilib. Rusiyanın Xarici İşlər Nazirliyinin saytının yaydığı məlumata görə, görüşdə ikitərəfli münasibətlərin aktual məsələləri və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq müzakirə olunub. Tərəflər 2010-cu ilin oktyabrında Bakıda keçirilmiş III Xəzər sammitinin qərarlarının yerinə yetirilməsi ilə bağlı vəziyyəti də müzakirə ediblər. Aşqabadda "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"nın hazırlanması üzrə xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupunun növbəti iclasının çağırılmasını zəruri hesab ediblər.

Görüşdə Rusiya Prezidentinin MDB-nin üzvü olan həmsərhəd ölkələrlə dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə xüsusi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir İqor Bratçik də iştirak edib.

**S.MÜRVƏTQIZI**

## Məcburi köçkün yaşadığı mənzildən çıxarılma təhlükəsiylə üz-üzə qalıb

Bir müddət əvvəl Laçın rayonundan məcburi köçkün Fizuli Təhməzov yaşadığı mənzildən çıxarılması ilə bağlı redaksiyamıza şikayət məktubu ilə müraciət edib. F.Təhməzovun özünün dediyi kimi Laçın rayonundan məcburi köçkün düşdükdən sonra 1993-cü ildən indiyədək Yeni Yasamal 1, bina 13, mənzil 8-də məskunlaşıb. O, indi məskunlaşdığı mənzildən çıxarılmaq təhlükəsi ilə qarşı-qarşıya qaldığını bildirib. F.Təhməzovun sözlərinə görə, 5 aydan artıqdır mənzil mübahisəsi ilə bağlı Yasamal Rayon Məhkəməsinə gəlib-gedir: "Bu məsələ ilə bağlı 2 dəfə hakim dəyişilib və indi iş hakim Sərdar Mehrəliyevdədir".

Keçirilən məhkəmə prosesi zamanı iddiaçı tərəf İbrahim Əhmədov vəkili hüquqi prosedura uyğun olaraq tələb olunan sənədləri hakim S.Mehrəliyevə təqdim edib. Hakim çıxışı zamanı qeyd edib ki, məsələnin həlli üçün Yasamal rayon İcra Hakimiyyətindən və Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsindən nümayəndələr dəvət edilsələr də, adları çəkilən qurumların nümayəndələri məhkəməyə gəlməyib.

Məhkəmə prosesi zamanı cavabdeh tərəf F.Təhməzovun vəkili Yasamal rayon İcra Hakimiyyətinin və Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin nümayəndələrinin iştirak etmədiyi üçün prosesin təxirə salınması ilə bağlı müraciət edib. Hakim S.Mehrəliyev prosesi oktyabrın 23-nə kimi təxirə salıb.

Məhkəmə başa çatdıqdan sonra F.Təhməzov bildirib ki, 1993-cü ildən etibarən Yeni Yasamal 1, bina 13, mənzil 8-də məskunlaşdıqları dövrdə həmin evlərdə heç bir kommunikasiya və s. vasitələr olmayıb: "Biz həmin binada məskunlaşan zaman bu tikilinin yalnız bünövrəsi və divarları var idi. Bütün tikinti işlərini özümüz həyata keçirərək burada özümüzə mənzil formalaşdırmışıq. Mənzilin təmirini də özüm etmişəm. Kommunal xidmətlərin—işıq, qaz, su pulunun ödənişini təsdiq edən bütün sənədlərin hamısı mənim adımadır. Lakin indi heç tanımadığım, görmədiyim bir nəfər bizi bu mənzildən çıxarmaq istəyir".

F.Təhməzov bunun yolverilməz hal olduğunu diqqətə çatdıraraq qeyd edib ki, Yasamal rayon 19 saylı Mənzil İstismar İdarəsinin rəisi Sadiq Tağıyev bu işlərdə yaxından iştirak edir: "Bu hal artıq bir neçə dəfədir təkrar olunur. Beləki, həmin evlərdə qeydiyyat olan şəxslərlə görüşüb onlara bu mənzillərdə müvəqqəti məskunlaşan biz məcburi köçkünlərin çıxarılmasına köməklik göstərir. Əminəm ki, Sadiq Tağıyevin bu əməllərindən nə Prezident İlham Əliyevin, nə də Yasamal rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyevin xəbəri var".

F.Təhməzov bildirib ki, iddiaçı tərəf İbrahim Əhmədov Yasamal Rayon Məhkəməsinə etdiyi müraciətində bizim bu mənzildən çıxarılmağımızı tələb edir: " 20 il müddətində bu adam harada idi, indi gəlib deyir, "bu mənzil mənimdir və oradan çıxmalısınız". Bəs biz 7 nəfərlik ailə bu evdən çıxarılsaq, harada məskunlaşacağıq? Çünki nə evlə təmin edilmişik, nə də torpaqlarımız işğaldan azad edilib. Təbii ki, torpaqlarımız qayıtsa və ya evlə təmin edilsək bu evdə qalası deyilik.

Bir məsələ də maraqlıdır ki, biz bu mənzildə yaşayırıqsa, digər şəxsə necə order verilə bilər? Hər halda bu zaman o mənzilə baxılmalı, oradakı vəziyyət araşdırılmalı idi. Fikrimcə, 19 saylı Mənzil İstismar İdarəsinin də bu işdə əli var".

F.Təhməzov məsələ ilə bağlı Prezident İlham Əliyevə, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənova müraciət etdiyini də diqqətə çatdırıb.

**BƏXTİYAR**

## _Ərdoğan:_ "Suriya təyyarəsindən götürülmüş yük hərbi təyinatlıdır"

Oktyabrın 10-da Moskvadan Dəməşqə uçan və Ankarada yerə endirilən təyyarədən götürülmüş yük hərbi təyinatlıdır. Bu barədə Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan bəyan edib. "Yük hərbi təyinatlıdır və tank üçün istifadə olunur. Yükün radarlar və başqa nəsə üçün göndərildiyi barədə məlumatların əsası yoxdur. Əslində, radar komponentləri də hərbi məqsədlər üçün istifadə olunur", deyə baş nazir bildirib.

O yük barədə daha ətraflı məlumatı açıqlamağın hələ tez olduğunu əlavə edib.

Xatırladaq ki, oktyabrın 10-da Moskvadan Dəməşqə uçan sərnişin təyyarəsi Ankarada yerə endirilmiş və təyyarədə 7 saat axtarış aparılmışdı. Türkiyə rəsmiləri axtarış nəticəsində təyyarədə Rusiya şirkətindən Suriya Müdafiə Nazirliyinə göndərilən hərbi təyinatlı yükün aşkar edilib götürüldüyünü bildirmişdilər.

## Tərtər istiqamətində atəşkəs pozulub

Cəbhə xəttində atəşkəs yenidən pozulub. Azərbaycan Müdafiə Nazirliyi mətbuat xidmətindən 525.az-a verilən məlumata görə, Ermənistan Silahlı Qüvvələrinin bölmələri oktyabrın 15-də Tərtər rayonunun Çaylı və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

## Sabit hava şəraiti davam edəcək

Oktyabrın 17-də Azərbaycanda hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən 525.az-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında oktyabrın 17-də hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 14-18, gündüz 23-27 dərəcə isti təşkil edəcək. Azərbaycanın rayonlarında oktyabrın 17-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18, gündüz 23-28, dağlarda gecə 4-9, gündüz 15-20 dərəcə isti olacağı gözlənilir.

## _Fazil Mustafa:_ "Parlamentin buraxılması adı altında millət vəkillərinin təhqir olunması yolverilməzdir"

"Bir millət vəkilinin hərəkətlərinə görə digər millət vəkillərinin təhqir olunması, eyni zamanda, parlamentin buraxılması tələbinin irəli sürülməsi heç cür qəbul olunan hal deyil.Parlament bu cür aşağılayıcı və təhqiramiz fikirlərə qarşı öz kəskin münasibətini və etirazını bildirməlidir". Bu fikirləri parlamentin oktyabrın 16-da keçirilən növbəti iclasında cari məsələlərin müzakirəsi zamanı çıxışında millət vəkili, Böyük Quruluş Partiyasının (BQP) sədri Fazil Mustafa dilə gətirib.

Millət vəkilinin xatırlatdığına görə, vaxtilə "Azadlıq" qəzetinin redaktorunun nalayiq hərəkətləri ilə bağlı mətbuatda və cəmiyyətdə müzakirələr getmişdi: "Məgər o zaman bir nəfərin hərəkətlərinə görə "Azadlıq" qəzeti öz fəaliyyətini, nəşrini dayandırmışdı? İndi belə olan halda bir millət vəkilinin hərəkətinə görə bütün millət vəkillərinin parlamentin buraxılması adı altında təhqir olunması və aşağılanması olduqca yolverilməzdir. Milli Məclis olaraq buna öz kəskin etirazımızı bildirməliyik. Bəli, parlamentin buraxılmasını, yeni seçkilərin keçirilməsini tələb etmək, bu təklifləri səsləndirmək olar. Amma heç kimə haqq verilmir ki, bu təklifləri səsləndirməklə əslində başqalarını təhqir etmək və ya aşağılamaq fikrinə düşsün". F.Mustafa çıxışı zamanı həmçinin qeyd edib ki, siyasi partiyaların maliyyələşdirilməsi məsələsini ən azı QHT-lərin maliyyələşdirilməsi məsələsi ilə eyniləşdirmək lazımdır: "Bu gün siyasi partiyaların, daha doğrusu, parlamentdəki partiyaların maliyyələşdirilməsinə nəzərdə tutulan vəsait çox azdır. Hesab edirəm ki, bu vəsait artırılmalıdır. Bu vəsaitin artırılması digər partiyalardan daha çox elə parlament çoxluğuna mənsub olan hakim Yeni Azərbaycan Partiyasına sərf edir. Belə olan halda görəsən maliyyə vəsaitinin bu qədər az olması nə ilə bağlıdır? Bu məsələyə yenidən baxılmalı və siyasi partiyaların 2013-cü ildə maliyyələşməsinə nəzərdə tutulan vəsaitin həcmi artırılmalıdır".

**Kamil HƏMZƏOĞLU**

## Millət vəkilindən Venesiya Komissiyasına etiraz

"Avropa Şurası Venesiya Komissiyasının "Dini etiqad azadlığı haqqında" Qanuna tövsiyə etdiyi son dəyişikliklər birmənalı olaraq qəbuledilməzdir". Bunu parlamentin dünən keçirilən növbəti iclasında cari məsələlərin müzakirəsi zamanı hakim partiyadan olan millət vəkili Siyavuş Novruzov deyib. Onun sözlərinə görə, son illər bütün beynəlxalq tədbir və toplantılarda Azərbaycanın milli və dini cəhətdən tolerant ölkə olması xüsusi vurğulanır, hətta, Azərbaycan bu məsələdə ən qabaqcıl Avropa ölkələrinə belə nümunə kimi təqdim olunur: "Amma çox təəssüflər olsun ki, yenə də kimlərsə Azərbaycanda dini tolerantlıqdan öz məqsədləri üçün sui-istifadə etməyə çalışırlar. Onlar sanki Azərbaycanı xüsusi laboratoriya mərkəzinə çevirmək məqsədinə cəhd göstərirlər. Venesiya Komissiyasının dini etiqad azadlığı ilə bağlı qanuna təklif etdiyi son dəyişikliklər də dediklərimə əyani sübutdur. Məsələn, onlar tövsiyə edirlər ki, xarici vətəndaşlar və ya vətəndaşlığı olmayan əcnəbilər Azərbaycanda da dini icma təsis edə bilərlər. Axı, dünyanın görəsən hansı yerində belə məsələ var? Eyni zamanda, onların növbəti tövsiyələrindən biri budur ki, əcnəbi din adamlarının Azərbaycanda dini ayinlər keçirməsinə icazə verilməlidi. Bunu təklif edənlər görəsən, bu məsələnin onların öz ölkələrində reallaşmasına imkan verərlərmi və ya bizim bir mollanın Avropada dini ayin həyata keçirməsinə dözərlərmi? Qətiyyən yox! Ona görə hesab edirəm ki, belə tövsiyələr Azərbaycanın daxili işlərinə qarışmaq məqsədi güdür və onların qəbulu birmənalı yolverilməzdir".

**Kamil HƏMZƏOĞLU**

## Nar Mobile pulsuz dəqiqələr kampaniyasını davam etdirir

ABUNƏÇİLƏR 12 AY ƏRZİNDƏ ÖLKƏDAXİLİ 30 DƏQİQƏ PULSUZ ƏLDƏ EDƏCƏKLƏR

Nar Mobile mobil operatoru cari ilin mart ayında başladığı pulsuz dəqiqələr kampaniyasını davam etdirir. Kampaniya nömrəni aktivləşdirdikdən sonra yeni abunəçilərə bir neçe üstünlük imkanı təklif edir. Belə ki, hədiyyə olaraq abunəçiyə bir il ərzində hər ay 30 dəqiqə ölkədaxili danışıq vaxtı verilir. Təqdim olunan bonus dəqiqələr həm səsli eləcə də video zənglərə şamil olunur. Abunəçi hədiyyə dəqiqələri 30 gün müddətində istifadə edə bilər, istifadə olunmayan bonus dəqiqələr növbəti aya keçirilmir.

Bonus dəqiqələr ay ərzində yalnız bir dəfə təqdim olunur və ilk ay üçün bonus nömrə aktivləşdirildiyi andan etibarən abunəçinin balansına avtomatik olaraq yüklənilir. Növbəti 11 ay ərzində isə bonuslar abunəçi balansını ən azı 2 AZN dəyərində artırdıqda təqdim olunur.

Kampaniya haqda daha ətraflı məlumat Nar Mobile-ın aşağıdakı internet səhifəsindən alına bilər:

http://narmobile.az/private/-campaigns/xosgelmissiniz/

# *Fəzail Ağamalı:* "Proporsional seçki sistemi bərpa edilməli, deputat yerləri 150-yə qaldırılmalıdır"

**Müsahibimiz Milli Məclisin (MM) üzvü, Ana Vətən Partiyasının (AVP) sədri Fəzail Ağamalıdır.**



***— Fəzail bəy, proporsional seçki sisteminin bərpası məsələsi son dövrlər yenidən gündəmi məşğul etməkdədir. Hətta, hakim partiyanın funksionerlərindən olan Siyavuş Novruzov da mətbuata açıqlamasında bu məsələnin haçansa reallaşa biləcəyinə işarə edib. Bu baxımdan, bu məsələnin növbəti parlament seçkilərinə kimi daha ciddi səviyyədə gündəmə gətirilməsi, aktuallaşdırılması, reallaşdırılması mümkündürmü? 2015-ə qədər bununla bağlı referendum keçirilə bilərmi?***

— Ötən Konstitusiya dəyişikliyində biz belə bir təşəbbüsdə olduq və fikrimizi Kütləvi İnformasiya Vasitələri ilə çatdırdıq ki, Azərbaycanda siyasi sistemin gücləndirilməsi, siyasi partiyaların formalaşdırılması və siyasi proseslərdə fəallığının artırılması üçün proporsional seçki sisteminə keçilməsi mühüm əhəmiyyət kəsb edir. Lakin çox təəssüf ki, həmin zaman kəsiyində bizim də müdafiə etmiş olduğumuz proporsional seçki sisteminin, həm də mojaritar seçki sistemi ilə bərabər, yəni, qarışıq- hər iki seçki sisteminin istifadə məsələsi reallaşmadı.

Mən bu gün də bunun tərəfdarıyam və düşünürəm ki, Azərbaycanın siyasi həyatında, siyasi mühitində, siyasi sistemində siyasi partiyaların yerini və rolunu artırmaq, gücləndirmək üçün heç şübhəsiz, proporsional seçki sisteminin tətbiqinə böyük ehtiyac var. Mən çox arzulayardım ki, 2015-ci ilə qədər belə bir dəyişiklik həyata keçirilsin və biz həm mojaritar, həm də proporsional seçki sistemindən istifadə edə bilək. Yəni, bu, yenidən tətbiq olunsun. Çünki bunların hər birinin özünəməxsus üstünlükləri var.

Mən nə proporsional seçki sisteminin bütövlükdə tərəfdarıyam, nə də mojaritar. Düşünürəm ki, hər ikisindən istifadə olunsa, hər ikisi özünəməxsus üstünlüklərə malikdir və bu baxımdan, məncə proporsional və mojaritar seçki sisteminin, yəni, qarışıq seçki sisteminin tətbiqi Azərbaycanın siyasi mühiti üçün əhəmiyyətli rol oynaya bilər.

***— Hakim partiyadan sonra, yəni, söhbət iqtidaryönümlü partiyalardan gedir, parlamentdə ən çox millət vəkili ilə təmsil olunan partiya məhz AVP-dir. Belə olan halda, partiyanız adından Konstitusiya dəyişikliklərini nəzərdə tutan qanun layihəsi ilə çıxış etmək fikriniz varmı? Ən azı digər həmkarlarınızı da bu məsələyə qoşmaq fikriniz varmı?***

— Hər halda biz fəaliyyətimizin o prinsipinə üstünlük veririk ki, qaldırmış olduğumuz məsələlərin reallaşması mümkün olsun. Yəni, nəyinsə xatirinə, gündəlikdə qalmaq üçün və ya siyasi proseslərdə müzakirəyə çıxarılacaq- bir həftə, 10 gün müzakirəyə çıxarılacaq məsələlərin aktuallığı nəzərə alınan ideyaların irəli sürülməsinin heç zaman tərəfdarı olmamışıq.

Biz bir qayda olaraq, bir partiya olaraq çalışırıq ki, cəmiyyətin qarşıya qoyduğu sosial sifariş xarakteri daşıyan məsələlər öz aktuallığını göstərəndə onu qaldıraq, onun reallaşmasına çalışaq. Əlbəttə, bir çox hallarda buna nail olmasaq da, hər halda belə düşünürük ki, 2015-ci ilin seçkiləri ərəfəsində ümumi məsləhətləşmələrdən sonra hadisələrin gedişini, sizin indi qaldırdığınız bu məsələnin, yəni, proporsional seçki sisteminin tətbiqinin aktuallığını nəzərə alaraq belə bir layihə ilə , belə bir təşəbbüslə çıxış etmək olar.

Ancaq unutmaq olmaz ki, bu, Konstitusiya dəyişikliyidir. Bu, xüsusi qanun layihəsi ilə deyil, məhz bu Konstitusiyada edilən dəyişiklik əsasında həyata keçirilə bilər və Konstitusiyaya dəyişiklik, məncə, bir çox məsələləri özündə ehtiva etməlidir, eyni zamanda bu məsələni.

***— Belə fikirlər də var ki, əgər proporsional seçki sistemi Azərbaycanda bərpa olunarsa, yaxud da qarışıq formada, ən azı parlamentdəki yerlərin sayı artırılmalıdır. Məsələn, qonşu Gürcüstanda, Ermənistanda əhali bizdən kifayət qədər az olmasına baxmayaraq, deputatlarının sayı çoxdur. Yəni, bizdə də konkret olaraq deputat yerlərinin 150-yə, 170-ə, 200-dək qaldırılması təklifləri var...***

— Düşünürəm ki, bu təklif reallığı əks etdirən təklifdir. Əslində Azərbaycanın əhalisinin sayına, inzibati bölgüsünə görə 125 deputat azdır. Bunu proporsional seçki sisteminin tətbiqi ilə artırmaq olar. Belə deyək ki, 25-30 nəfər, əlbəttə, təqribi rəqəmi deyirəm, ya 50 nəfər ola bilər proporsional seçki sistemi, 100 nəfər də ola bilər mojaritar seçki sistemi. Bu da mümkündür və ya əksinə. Hər halda gələcəkdə əgər proporsional seçki sistemi tətbiq olunarsa, mojaritarla bərabər, heç şübhəsiz ki, deputat mandatlarının respublikada say və miqdarı da artırılmalıdır.

***— Konkret özünüzün rəqəminiz varmı?***

— Yəni, real rəqəm hardasa 150 nəfər. Belə düşünürəm. Onun 50-si proporsional, 100-ü isə mojaritar sistemlə keçə bilər.Və ya bərabər ola bilər. Məsələn, 75-in 75-ə...

**KAMİL**

## *Nizami Cəfərov:* "Əgər birdən ağlımız olmasa..."

Dünən Milli Məclisdə (MM) "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarılıb.MM-in Mədəniyyət komitəsinin sədri Nizami Cəfərov deyib ki, adıçəkilən qanuna dəyişikliyə əsasən, təsdiqlənmiş siyahıdan abidənin çıxarılması müvafiq icra hakimiyyəti orqanının təklifi əsasında, Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçiriləcək.

Millət vəkili, Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova deyib ki, memarlıq abidələri ilə bağlı bu gün əsas ağırlıq mərkəzi Azərbaycan Milli Elmlər Akademiyasında yox, Memarlıq və İnşaat Universitetindədir: "Biz tarixi abidələrin siyahıdan çıxarılmasını belə asanlaşdırmamalıyıq".

Buna cavab olaraq N.Cəfərov xatırladıb ki, bu gün Qobustan qayaüstü rəsmləri YUNESKO-nun siyahısında yer alıb: "Əgər birdən ağlımız olmasa, Qobustanda bir abidəni dağıtsaq, YUNESKO buna etiraz edər, qoymaz. Azərbaycan Milli Elmlər Akademiyasının rəy verməsi o demək deyil ki, bu məsələyə yalnız onlar baxır. Bununla bağlı yaradılacaq komissiyada başqa mütəxəssislər də təmsil olunacaqlar".

Qanun layihəsi səsverməyə çıxarılaraq qəbul edilib.

**Kamil HƏMZƏOĞLU**

## Millət vəkili beynəlxalq təşkilatları Ermənistana təzyiq etməməkdə suçlayıb

Millət vəkili, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun üzvü Qənirə Paşayeva TÜRKPA-nın "Dövlətlərarası əməkdaşlığın inkişafı prosesində gənc liderlərin rolu" mövzusunda İstanbulda keçirdiyi beynəlxalq forumda çıxışında Ermənistanın işğalçılıq siyasətini kəskin tənqid etməklə yanaşı beynəlxalq ictimaiyyəti və təşkilatları münaqişənin həlli istiqamətində rəsmi İrəvana təzyiq etməməkdə ittiham edib. Q.Paşayeva çıxışında Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi vandalizm aktları, azərbaycanlılara məxsus tarixi-mədəni, dini abidələri və qəbiristanlıqları dağıtmaları, Xocalı soyqırımı da daxil olmaqla dinc azərbaycanlılara qarşı törədilən soyqırım aktları, həmçinin, 20-ildən artıqdır 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünün öz yurd-yuvasına dönməsinə imkan verilməməsi barədə tədbir iştirakçılarına geniş məlumatlar verib. Q. Paşayeva 1988-ci ildə Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində bütün azərbaycanlıların Ermənistandan zorla qovulması və bu gün orada bir nəfər belə olsun azərbaycanlının yaşamaması barədə də ətraflı məlumat verib. Dağlıq Qarabağ münaqişəsinin tarixi və nəticələri, Ermənistanın təcavüzkar siyasəti barədə ətraflı məlumat verən millət vəkili problemin həlli istiqamətində Azərbaycanın göstərdiyi səylərdən və Ermənistanın destruktiv mövqeyindən danışıb. "Bu gün müzakirə etdiyimiz mövzu Avropanın və ümumiyyətlə dünyamızın gələcəyi üçün çox vacib və əhəmiyyətlidir" — deyən millət vəkili bildirib ki, gənc liderlər dünyanın harasında, hansı ölkədə baş verməsindən asılı olmayaraq bu hallara qarşı sərt mübarizə aparmalıdır.

Millət vəkili çıxışında Avropada və dünyada tolerantlığın, dözümlülüyün, xoşgörünün getdikcə azalmasının hamını, xüsusilə gəncləri ciddi narahat etməli olduğunu deyib. "Bizim atalarımız 2-ci Dünya Müharibəsinin nələrə səbəb olduğunu çox yaxşı bilir. Biz tarixdən dərs almalıyıq. Amma təəssüf ki, dünyada bəzi ölkələr və siyasətçilər hələ də bundan dərs çıxarmayıb və irqçi, başqa millətlərə, mədəniyyətlərə qarşı dözümsüzlük siyasəti yürüdürlər. Torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan bunun nə demək olduğunu yaxşı bilir.

Mən bu cür hallardan əziyyət çəkən bir ölkənin təmsilçisi kimi bu məsələlərə həssaslığı daha da artırmağa çağırıram. Məhz Ermənistanda siyasətçilərin gənc nəsildə azərbaycanlılara qarşı yaratdıqları dözümsüzlük və nifrətin nəticəsi idi ki, 1988-ci ildə Ermənistandan 100 minlərlə azərbaycanlı zorla, əziyyət edilərək qovuldu. Bəli, siyasətçilərin gənc nəsildə azərbaycanlılara qarşı yaratdıqları dözümsüzlük və nifrətin nəticəsi idi ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərini işğal edərək 20 mindən çox azərbaycanlını qətlə yetirdi, Xocalı şəhərində dinc azərbaycanlılara qarşı soyqırım törətdi, 1 milyon azərbaycanlı 20 ildən artıqdır ki, məcburi köçkün həyatı yaşayır və evlərinə dönə bilmirlər. Gənc liderlər dünyanın daha yaxşı gələcəyi naminə bu kimi hallara qarşı birgə sərt mübarizə aparmalıdır". Millət vəkili çıxışında mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa da geniş yer verib. "Bu gün dünyada ən çox müzakirə olunan mövzu mədəniyyətlərarası və sivilizasiyalararası dialoqdur. Amma biz hər gün bu sahədə vəziyyətin daha da gərginləşdiyini görürük. Deməli ki, danışmaqdan daha çox bu istiqamətdə dünyada ciddi işlərin görülməsinə ehtiyac var. Dialoq dözümlülükdən deyil, fərqli mədəniyyətlərin daşıyıcılarının biri-birinə qarşılıqlı hörmətindən keçir. Amma Avropada bəzi güclər, siyasətçilər irqçi düşüncələr altında siyasət yürütməyə başlayıb"- deyən millət vəkili bunun Avropanın gələcəyi üçün mənfi nəticələr göstərə biləcəyini deyib və gənc liderlərin harada baş verməsindən asılı olmayaraq mənfi tendensiyaların qarşısının alınması istiqamətində səylərini gücləndirməsinin vacibliyini vurğulayıb. Millət vəkili Azərbaycanın mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa önəm verdiyini, Azərbaycanın bu istiqamətdə örnək ölkələrdən olduğunu və çalışmalar həyata keçirdiyini deyib.

**Kamil HƏMZƏOĞLU**

# *Oktay Ekşin:* "Azərbaycandakı elm adamlarının gerçəkləri ortaya çıxarması məni sevindirdi"

**CHP İstanbul millət vəkili, Türkiyə Mətbuat Şurasının keçmiş sədri Oktay Ekşinin APA-ya müsahibəsi**



***— Türkiyə Böyük Millət Məclisində Suriyaya qarşı hərbi əməliyyatlara icazə verən qanun layihəsi ilə bağlı qərar qəbul edilərkən iqtidar partiyası və ona dəstək verən MHP bunu "Türkiyənin mənafeyinə olan bir qərar" kimi xarakterizə etdi. Burada Türkiyənin hansı mənafeyindən söhbət gedir?***

— Mən bunu anlamıram və Türkiyənin hər hansı mənafeyi olduğuna da inanmıram. Türkiyə Cümhuriyyətinin qurulmasından bəri görülməmiş işlərin bu hökumət dönəmində görülməsi Türkiyənin mənafeyinə daban-dabana ziddir. Nə demək istədiyimi bir az açıqlayım. Türkiyə Cümhuriyyəti qurulandan bəri hansısa əcnəbi ölkənin daxili işinə ordakı silahlı qruplara silah verərək, onları təlimatlandıraraq, hətta xarici dövlət tərəfindən "terrorçu" şəklində xarakterizə edilən insanlara dəstək verərək siyasət yürütməmişdir, bunun örnəyi yoxdur. Ancaq bu iqtidar dönəmində Suriyada çoxu nə olduğu qeyri-müəyyən olan qruplara silah və təlim verildi, onlara Türkiyə torpaqlarına sığınma və öz ölkələrinə qarşı hərbi əməliyyatlar təşkil etmə imkanı yaradıldı və beləliklə, 90 illik Cümhuriyyətin təməl dəyərlərinə daban-dabana zidd olan siyasət yürütdülər. İndi o siyasətin aparıb dirədiyi dalandan çıxmağa çalışırlar.

Başqasına güvənərək yola çıxmağın doğru olmadığına dair çoxlu atalar sözü var, mən onları xatırlatmadan sözlərimə davam edim. "ABŞ, NATO bizimlə birgə olacaq, Orta Şərqdə Osmanlı xəyalını həyata keçirəcəyik" romantizmi ilə yola çıxdılar, ancaq indi güvəndikləri bütün dağlara qar yağdığını görürlər. Heç bir ölkə öz milli mənafeyindən başqa xarici siyasət həyata keçirməz, bizimkilər isə başqalarının mənafeyinə uyğun xarici siyasət həyata keçirmək istədilər. Öyrənirlər, öyrənəcəklər, ancaq Türkiyənin başına bir bəla gəlmədən xarici siyasəti öyrənmələrini diləyirik. Məncə, bəla ehtimalı kiçik deyil, ən xırda təxribatla böyük bəlaya düçar ola bilərik. İnşallah, belə bir şey yaşamarıq, əgər başımıza belə bir şey gələrsə, bu siyasəti izləyənlər onun altında qalacaqlar. Türkiyə çox şey itirər və 1918-ci ilin noyabr ayının əvvəllərindəki durumu Türkiyə yenidən yaşaya bilər. O vaxt Türkiyəni Birinci Dünya müharibəsinə daxil edən "İttihad və Tərəqqi" partiyasının liderləri özlərini xaricdə atacaqları liman axtarmaq məcburiyyətində qaldılar və alman gəmiləri ilə bir gecə yarısı İstanbuldan qaçdılar. Türkiyəni bu cür macəralara sürükləyənlər qorxuram ki, o cür sıxıntılar yaşaya bilərlər. Ona görə Türkiyəni bu dalandan çıxarmaq yolunu taparlarsa, hamımız bir az rahatlayarıq. Ancaq işin getdikcə çətinləşdiyini də görürük.

***— Hazırda Türkiyə Orta Şərq və Şimali Afrika cizgisində özünə mübarizə sahəsi yaradıb. Siz də yaxşı bilirsiniz ki, 2015-ci il yaxınlaşdıqca Türkiyənin şimali-şərq cəbhəsinin, yəni Ermənistanın və dünyadakı erməni diasporunun təzyiqinə məruz qalması ehtimalı böyükdür. Sizcə, Türkiyə bu cür dağınıq xarici siyasətlə bir neçə cəbhədə necə mübarizə aparacaq?***

— Ermənilər uzun illərdən bəri türklərin onları qətl etdiyini, sanki evlərində oturub ticarəti, sənəti, iqtisadiyyatı ilə məşğul olan günahsız insanları öldürdüyünü iddia edirlər. Hitler yəhudiləri qazla öldürdü, ermənilərdən soruşsanız deyəcəklər ki, türklər də evlərimizə girib uşaq-böyük demədən bizi qətl etdi. Bunun gerçək olmadığını hamımız bilirik. Bunun gerçək olmadığını ən yaxşı bilənlər bu gün Türkiyənin cənubi-şərq vilayətlərini parçalamağa çalışanlardır. Suriyadakı Osmanlı torpaqlarına göndərilməkdə olan erməni ailələrini soyan, doğrayan, təcavüz edən, günahsız insanlara qarşı ən ağır insanlıq suçunu həyata keçirənlər, təkrar edirəm, bu gün Türkiyədən vətənin bir parçasını qoparmaq arzusu ilə ortaya çıxanlardır. Hər kəs bilir ki, o vaxt ermənilər rus ordusunun sıralarına qatılıb öz ölkəsinin ordusunu arxadan silahla vurmuşdu. Mülki türklərə ən ağır şərtlərdə hücum edərək onları qətlə yetirmişlər. Hələ də ermənilər tərəfindən qətl edilən türklərin toplu məzarları çıxır. Ermənilər o vaxt baş vermiş hadisələrin özlərinin işlərinə gələn hissələrini ortaya qoyub tarixə xəyanət edirlər və gerçək sülhə nail olmağı əngəlləyirlər. "Daşnaksütun" və diaspor ermənilərinin bu böhtanların arxasında olmasına görə üzgünəm. Onlar yenə bildiklərini edəcəklər. Bizim hökumətimiz uzun müddətdən bəri bu məsələ ilə ciddi məşğul olmadı, dünya ictimaiyyətinə lazımi məlumatı vermədi. Sadəcə, "arxivləri açdıq" deməklə kifayətləndilər. Ermənilər dünyanın hər yerindən öz mübarizələrinə uyğun kitablar yazdırdılar, təşkilatlar qurdular, dünya parlamentlərində qərarlar qəbul etdirdilər. Türkiyə illərdən bəri davam etdirilən mühasirənin içindədir, növbəti mərhələdə o qərarların BMT-də bir qərara çevrilməsi ehtimalı güclüdür. Bu, türklərin yox, Türkiyəni idarə edənlərin laqeydliyinin nəticəsidir. Proqnozdan, dövlət adamı xüsusiyyətlərindən məhrum idarəçilər Türkiyənin başına bir də bu bəlanı gətirirlər. Ermənilər torpaq və təzminat, həm də "soyqırım"a görə Türkiyənin cəzalandırılmasını tələb edirlər. Tablo getdikcə Türkiyə üçün daha da çətin hala gəlir. Ancaq seçkidə qalib gəlməkdən, prezident olmaqdan başqa zehnində heç bir şey olmayan adamlar ölkəni idarə edərsə, təəssüf ki, yaxın gələcəkdə bu cür acı gerçəklə üz-üzə gələ bilərik.

***— Bu yaxınlarda baş nazir Rəcəb Tayyib Ərdoğan partiyanızın keçmiş liderlərindən biri, keçmiş prezident və baş nazir İsmət İnönünün "müharibədən sonra 146 azərbaycanlı ziyalını Stalinə təhvil verdiyini" dedi. Bu sözlər Azərbaycanda birmənalı qarşılanmadı, tarixçilər məsələnin mahiyyəti barədə ictimaiyyətə ətraflı məlumatlar verdilər. Bu barədə nəsə demək istərdinizmi?***

— Hörmətli baş nazir səthi məlumatlarla danışmağı və haqsız yerə bizim partiyamıza hücum etməyi sevir. Tarixdən bir paraqraf oxuyub onu alayarımçıq şəkildə ictimaiyyətlə bölüşməyin nəticəsi yaxşı olmaz. Azərbaycanda bu məsələyə obyektiv yanaşılmasına sevindim. Türkiyə, CHP tarixinə düşmənlik hissi bəsləyən, xüsusilə İsmət paşaya haqsız yerə hücum etməkdən zövq alan bir zehniyyət tərəfindən idarə edildiyinə görə Azərbaycandakı elm adamlarının gerçəkləri ortaya çıxarması məni sevindirdi. Təəssüf ki, bunu Türkiyədə görə bilmədik. Bu da Türkiyədəki tarixçilərin o dönəmlə bağlı ciddi araşdırmalar aparmaması ilə bağlıdır. Əgər o dönəm yaxşı araşdırılsaydı, bir neçə tarixçi baş nazirin böhtan xarakterli sözlərinə cavab verərdi.

**Fərhad MEHDİYEV**

**xüsusi olaraq APA üçün**



# Gürcüstanda nələr olacaq?

2012-ci ilin vacib hadisələrindən biri də Gürcüstanda keçirilən parlament seçkilərində hazırki prezident Mixail Saakaşvilinin başçılıq etdiyi "Vahid Milli Hərəkat"ın Bidzina İvanişvilinin "Gürcu Arzusu" blokuna məğlub olması oldu.

Məğlub olması deyəndə, 150 nəfərlik Gürcüstan parlamentində 54,85 faiz səslə 87 yeri "Gürcü arzusu", 40,43 faiz səslə isə 67 yeri isə "Vahid Milli Hərəkət" qazandı. Mövcud Konstitusiyanın 81-ci maddəsinə görə, Prezidentin təyin edəcəyi baş nazir və Nazirlər Kabineti parlamentdən etimad rəyi almalıdır. Bu isə o deməkdir ki, Gürcüstanda hökuməti "Gürcü arzusu" müəyyənləşdirəcək. Daha doğrusu, artıq müəyyənləşdirib.

Bu seçkilərdə və ondan sonra İvanişvilinin NATO-ya və Qərbə ard-arda "sədaqət andı" içməsinə baxmayaraq, Qərb narahatdır. Niyə sualının çox açıq cavabı isə İvanişvilinin Rusiyaya bağlı keçmişindədir. Eyni zamanda parlamentli respublika sisteminə keçid baş verəcəyi üçün bu seçkilər Gürcüstanın gələcək idarəetmə yolunu, siyasətini və dünyaya baxışını da müəyyənləşdirir.

... Bəzi məlumatlara görə, İvanişvilinin sərvətinin 4 milyard dollardan çox olduğu bildirilir. Və bu 4 milyard sərvət də soyuq, Gürcüstan üçün isə çox soyuq olan Rusiyada qazanılıb.

İvanişvili bu sərvətini 2000-2008-ci illərdə Putinin hakimiyyəti dönəmində toplayıb. Və bu həmin vaxtlar idi ki, bir çox böyük oliqarx-biznesmenlər Rusiyanı məcburi və ya könüllü tərk edirdilər. Həmin vaxt heç bir maneə hiss etmədən milyonerdən milyarder statusuna tərəf irəliləyən İvanişvili 2011-cu ilin payızında ani bir qərarla Rusiyadakı sərvətini satır və Gürcüstana doğru istiqamətlənir. O, 2012-ci ildə Gürcüstanda keçiriləcək parlament seçkilərində iştirak etmək arzusunu da məhz həmin vaxt, heç gecikmədən açıqlamışdı...

İndilik əsas sual bundan ibarətdir: İvanişvili Gürcüstanın üzünü Qərbdən Rusiyaya tərəf çevirəcəkmi? NATO və Aİ ilə inteqrasiyadan geri addım atacaqmı? Bu sual sadəcə Qərb üçün yox, habelə Azərbaycan üçün də çox aktual və vacibdir. Amma bizim üçün bu suallardan daha vacib olanı daha biri var. İvanişvilinin hakimiyyəti dövründə Rusiyanın qonşu və düşmən Ermənistanla münasibətlərində Gürcüstan hansı rolu oynayacaq? Məsələn, Ermənistan Azərbaycan münaqişəsində silahlar danışası olsa, Gürcüstan necə davranacaq? Ermənistan üçün oksigen balonu, Rusiyanın imdada yetişməsi üçün quru dəhlizi rolunu oynayacaqmı?

✦✦✦

...Gürcüstan — əhalisi, sahəsi və təbii ehtiyatları baxımından kiçik və kasıb dövlətdir. Lakin Gürcüstan Qafqazların Qərbə açılan qapısıdır, eyni zamanda həm də Trans-Xəzər ölkələri üçün dənizə çıxışdır. Buna görə də regiona daxil olub, hərəkət etmək üçün Gürcüstan bir fürsətdir. Əsas enerji, nəqliyyat və kommunikasiya layihələri Gürcüstan üzərindən reallaşır. Qərb çox yaxşı bilir ki, Rusiya Gürcüstanda nüfuz sahibi ola bilsə, bölgədə hökmranlıq üçün fürsətləri artacaq.

İvanişvili isə hələ seçki ərəfəsində gürcü xalqına onun hakimiyyəti dövründə Rusiya ilə normal münasibətlər vəd etmişdi. İvanişvilinin qalibiyyətində bu vədin danılmaz rolu olduğu da aydındır. Çünki Saakaşvilinin söyləmədiklərinə onun yeganə əlavəsi budur.

Rusiya kimi qüdrətli dövlətlə qonşuluq edib, onunla ehtiyatlı siyasət həyata keçirmədən ötüşmək mümkün deyil. Rusiyanı regionda görməməzlikdən gəlmək qeyri-rasional bir yanaşmadır. Saakaşvilinin məğlubiyyətində onun "aqressiv Rusiya siyasəti"nin payı çox böyükdür.

İvanişvili eyni zamanda NATO-ya qoşulma və Qərblə daha yaxın inteqrasiya istəyini də bildirib. Hətta onun blokunun mitinqlərində NATO bayraqlarını da görmək mümkün idi.

Lakin bu ştrixlər İvanişvilinin "gerçək qərbpərəst" olduğunu göstərmək üçün o qədər də həlledici deyil. İvanişvilinin Qərblə bağlı bəyanatlarını həm də Saakaşvilinin pro-qərb siyasətindən razı olub, daxili siyasəti ilə barışmayan protest elektorata yönəlik səsləniş kimi qəbul etmək daha doğru olar.

Gürcüstanda elektoratın müəyyən hissəsi Abxaziya və Osetiya sakinlərinə rus pasportlarını paylayan Rusiyanı sevmək istəyindən uzaqdır. Ərazisinin iki ayrı-ayrı subyektini "müstəqil dövlət" kimi tanıyan ölkəni vətəndaşa sevdirmək İvanişvili hakimiyyətinin gücündən çox uzaq olan məsələdir. Bu, yalnız Rusiyanın həmin subyektlərlə bağlı iddialarından geri çəkilməsi halında baş verə bilər ki, yaxın tarixdə belə bir möcüzənin olacağı da real deyil. Bu səbəblə də İvanişvilinin pro-Qərb bəyanatları daha çox daxili elektorata və Qərbdən dəstək almağa yönəlmiş kimi görünür.

İvanişvili ilk səfərini Amerikaya, daha sonra isə Azərbaycana edəcəyini açıqladı. Bəli, bu iki dövlət, sırası ilə Gürcüstanın ən yaxın müttəfiqi və əslində himayədarıdır. Ən azından son 10 il ərzində bu, belə olub. İvanişvili bu bəyanatları ilə Gürcüstanın xarici siyasətində köhnə kursa sadiq qalacağını göstərmək istədi. Belə olacaqmı? Bunu isə zaman göstərəcək...

Təkcə bunu yox... Həm də "ideoloji" Saakaşvilinin yerinə milyarder İvanişvilinin daha nələr edəcəyi ilə bağlı sualların da cavabı zamandadır.

Hər halda proqnozlaşdırılan budur ki, yaxın bir ildə İvanişvili Qərbi məmnun etməyən addımlar atmayacaq. Bunun bir səbəbi onun öz komandasını möhkəmləndirməsi üçün qazanacağı zaman, digər səbəbi isə 2013-cü ilin noyabr ayına qədər Saakaşvili faktorunun qalmasıdır.

### Saakaşvili nə edəcək?

Saakaşvilinin qarşıdakı 1 il ərzində hökuməti istefaya göndərmək, yeni baş nazirlə bağlı namizədini parlamentə təklif etmək imkanı var. Parlamentin bu namizədi 3 dəfə qəbul etməməsi halında prezidentin parlamenti buraxmaq səlahiyyəti də var.

Saakaşvilinin İvanişvilinin səhvlərini təqib edəcəyi də şübhəsizdir.

Xalqın İvanişvilidən əsas gözləntisi maddi və sosial vəziyyətində müsbətə doğru inkişaf etməsidir. İvanişvili böyük ehtimalla şəxsi vəsaiti hesabına olsa da, Gürcüstanda iqtisadi vəziyyəti müsbətə doğru istiqamətləndirməyə çalışacaq və bəzi müsbət nailiyyətlər əldə edəcək. Belə olan halda isə yeni dönəmdə Saakaşvilinin yeri müxalifətdə görünür...

# *Oqtay Əsədov:* "Gülər Əhmədova deputat mandatından imtina edib,

## BUNU ŞİŞİRTMƏK LAZIM DEYİL"

"Parlamentdə müstəqillik uğrunda mübarizə aparmış millət vəkillərinə münasibət dəyişməlidir". Bunu Milli Məclisdə (MM) cari məsələlər üçün ayrılmış vaxtda çıxış edən millət vəkili Fərəc Quliyev söyləyib.

Millət vəkili İqbal Ağazadə isə Müsavat Partiyası Gənclər Təşkilatının sədr müavini Nigar Yaqublunun azadlığa buraxılması ilə bağlı millət vəkillərinin məhkəmədən xahiş etdiyini, ancaq məhkəmənin bu xahişi nəzərə almadığını vurğulayıb: "Xarici ölkələrdə bu məsələ hətta, girov qoymaqla həll edilir. Millət vəkillərinin xahişinə bu cür münasibət təəssüf doğurur".

İ. Ağazadə çıxışında 18 oktyabr — Müstəqillik Gününün iş günü olmasını da qəbuledilməz sayıb: "28 may — İstiqlaliyyət Gününü qeyd edirik, ancaq 18 oktyabr Müstəqillik Gününü niyə qeyd etməməliyik? Xaricdə Müstəqillik Gününə belə münasibətimizi bilsələr, bizə gülərlər".

Spiker Oqtay Əsədov da öz növbəsində Prezident İlham Əliyevin son çıxışı ilə bağlı daxildə və xaricdə olan iradların siyasiləşdirmək cəhdləri olduğunu bildirib: "Prezident İlham Əliyev neft hasilatının əlifbasını söylədi. Nə vaxt hasilat aşağı düşəndə nə etmək lazımdır, bu, hər kəsə aydındır. 3 il hasilatı sabit saxlamaq olar. Prezident dedi ki, BP savadlı şirkətdir, götürdüyü öhdəlikləri yerinə yetirsin. Necə oldu ki, Azərbaycanın payı 80 faizə çatanda hasilat aşağı düşdü? Deməli, BP-nin hasilatı yüksəltməkdə marağı olmayıb. Prezident Azərbaycanın marağını qoruyur. Bəziləri isə sevinirlər. Nəyə sevinirlər? BP də xəbərdarlığını aldı, hasilatı yüksəldəcək. Bütün bunlara sevinənlər Azərbaycanı sevməyənlərdir".

O. Əsədov sonra müstəqil Azərbaycan Respublikasının Azərbaycan Demokratik Cümhuriyyətinin varisi olduğunu və 28 mayın İstiqlal Günü kimi qeyd olunduğunu söyləyib. O, Gülər Əhmədova məsələsinə də toxunub: "Gülər Əhmədova deputat mandatından imtina edib, istintaq gedir, bu məsələni şişirtmək lazım deyil".

**Kamil HƏMZƏOĞLU**

# Milli Məclisdə deputatlar arasında mübahisə yaranıb

Milli Məclisin dünənki plenar iclasında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna dəyişiklik edilməsi müzakirə olunarkən deputatlar arasında mübahisə düşüb.

APA-nın məlumatına görə, deputat Sabir Rüstəmxanlı millət vəkillərini, ziyalıları cəbhədə əsgərlərlə ünsiyyətdə olmağa çağırıb: "Sanki əsgərlərimiz cəbhədə unudulub. Mən cəbhə bölgəsində oldum, komandiri bir saat tapa bilmədim. Milli Məclisdə komissiya yaradıb, cəbhə bölgəsinə göndərmək lazımdır. Rəsmi səviyyədə orduya diqqət var, ictimaiyyətin də orduya diqqəti artmalıdır".

YAP-çı deputat Aydın Mirzəzadə isə Sabir Rüstəmxanlının iradları ilə razılaşmayıb: "Əgər hərbi hissəyə gələn qonaq əvvəlcədən məlumat verməyibsə, necə olmalıdır? Ordu haqqında belə təəssürat yaratmaq düzgün deyil. Necə yəni komandiri tapa bilmədim?"

Vitse-spiker Ziyafət Əsgərov da Aydın Mirzəzadəni dəstəkləyib: "Sabir müəllim, siz şairsiniz, Yazıçılar Birliyi qarşısında məsələ qaldırmısınız ki, yazıçılar cəbhəyə getsinlər? Mən çox istərdim ki, yazıçılarımız, sənət adamlarımız, şairlərimiz cəbhəyə getsinlər. Sənət adamları gedir, ancaq mən tanınmış şairlərimizin cəbhə bölgəsinə getməsini eşitməmişəm. Gərək bunu da siz edəsiniz, parlament yox".

# Millət vəkilindən ermənilərə cavab

## *SEVİNC FƏTƏLİYEVA:* "RAMİL SƏFƏROV MƏSƏLƏSİNƏ QARABAĞ MƏSƏLƏSİNDƏN AYRI BAXILA BİLMƏZ"



"Ramil Səfərovun ekstradisiyası və əfvi haqda artıq AŞPA-da kifayət qədər müzakirələr aparılıb, yenidən təkrar edirəm ki, bu prosesdə nə beynəlxalq konvensiyanın, nə beynəlxalq hüququn tələbləri , nə də Azərbaycan qanunları pozulub. Biz beynəlxalq qanunlara həmişə hörmətlə yanaşmışıq və riayət etmişik".Bu fikirləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva "Avronest" Parlament Assambleyası (PA) çərçivəsində Avropa Xalqları Partiyasının (EPP) iclasında iştirakçıların , o cümlədən, Ermənistan nümayəndələrinin millət vəkilinə Ramil Səfərov və bu hadisənin tolerantlıq mühitinə təsiri məsələsi ilə bağlı suallarını cavablandırarkən dilə gətirib.

S.Fətəliyevanın suallara cavabı belə olub ki, hüquqşünas olmayan da başa düşməlidir ki, əfv anlayışı — cinayətlərin və əfvin tanınmasıdır.

Onun dediyinə görə, Ramil Səfərov törətdiyi cinayətə görə 8 il həbsdə olub:

"Ölkə rəhbərliyi bu müddətin yetərli olduğunu hesab edərək, qanun çərçivəsində onu əfv edib. Belə hadisələr ancaq bizim torpaqlarımız işğaldan azad olunandan sonra bitəcək. Ramil Səfərov məsələsinə Dağlıq Qarabağ məsələsindən ayrı baxıla bilməz, ona görə ki, o hadisənin arxasında məhz Qarabağ məsələsi durur. Ramil Səfərov məsələsi nədən hələ də gündəmdədir? Bu kontekstə niyə digər məsələlərə diqqət yönəlmir? Məhz, erməni terrorçunun Orli aeroportunda Türk hava yollarının ofisini partlatmasından sonra terrorçunun həbs məsələsi, 8 yaşlı günahsız uşağın erməni snayperi tərəfindən güllələnməsi nədən müzakirə edilmir?!

Tolerantlıq məsələsinə gəlincə, Azərbaycan Ermənistanla müharibə şəraitində olmasına baxmayaraq, ölkəmizdə hal-hazırda 30 000—dən çox erməni yaşayır. Onlar rahat yaşayırlar. Bu tolerantlığın ən gözəl göstəricisidir".

## İqbal Ağazadə parlamentdə Nigar Yaqublunun azadlığa buraxılması məsələsini qaldırıb

Milli Məclisin dünənki iclasında Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə Müsavat Partiyası Gənclər Təşkilatının sədr müavini Nigar Yaqublunun azadlığa buraxılması məsələsini qaldırıb. APA-nın xəbərinə görə, İ.Ağazadə bildirib ki, bir neçə deputat bununla bağlı Abşeron rayon Məhkəməsinə və Sumqayıt Apellyasiya Məhkəməsinə müraciət edib: "Müraciət olunub ki, Nigar Yaqublu barəsində həbs-qətimkan tədbiri dəyişdirilsin, zaminliyimizə verilsin. Çünki Nigar Yaqublu ağır və ictimai cinayət törətməyib. Amma hakimlər deputatları eşitmədi, bu da məhkəmələrin müstəqil olmadığını göstərir".

## Mülkiyyət hüququ ilə bağlı arayışlar elektron formada veriləcək

Azərbaycanda Daşınmaz Əmlakın Dövlət Reyestrindən mülkiyyət hüququ və onların məhdudlaşdırılması üzrə dövlət qeydiyyatına qəbul edilən əmlakın təsvir sxeminə aid olan arayışlar elektron formada veriləcək. Bu məsələ Milli Məclisin (MM) çərşənbə axşamı "Daşınmaz Əmlakın Dövlət Reyestri haqqında" qanuna təsdiq etdiyi dəyişikliklərdə öz əksini tapıb. Qanun layihəsi barədə məlumat verən MM-in Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, dəyişikliklər arayışların yazılı və elektron formada verilməsini nəzərdə tutur. Bundan başqa, elektron formada müraciətə cavab olaraq arayış və ya imtina haqqında əsaslandırılmış məktub veriləcək. Qeydiyyat üzrə orqan müraciət edən şəxsə beş gün ərzində cavab verməlidir.

**Kamil HƏMZƏOĞLU**

## *Siyavuş Novruzov:* "Aşsüzənə dönüb..."

Dünən Milli Məclisdə (MM) İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb. MM-in Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, dəyişiklik dağınıq skleroz xəstəliyi səbəbindən həmin şəxslə əmək müqaviləsinin bağlanmasından imtina edilməsinə, yaxud əmək müqaviləsinə xitam verilməsinə görə vəzifəli şəxsin 1500-2000 manat məbləğində cərimələnməsini nəzərdə tutur.

Millət vəkili Siyavuş Novruzov isə deyib ki, İnzibati Xətalar Məcəlləsi aşsüzənə dönüb: "Tez-tez İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edirik. Ümumiyyətlə, İnzibati Xətalar Məcəlləsinin yenidən hazırlanmasına ciddi ehtiyac var".

Sonra qanun layihəsi səsverməyə qoyularaq qəbul edilib.

**Kamil HƏMZƏOĞLU**

# Millət vəkilləri MDB Parlament Assambleyasının tədbirinə qatılıblar

Milli Məclisin (MM) Regional məsələlər komitəsinin və MDB PA-nın Sosial siyasət və insan hüquqları üzrə Daimi komissiyasının sədri Arif Rəhimzadə, deputatlar Adil Əliyev və Aslan Cəfərov MDB Parlamentlərarası Assambleyasının (PA) tədbirlərində iştirak etmək üçün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində səfərdədirlər. Millət vəkilləri qurumun Sosial siyasət və insan hüquqları, İqtisadiyyat və maliyyə, Təhlükəsizlik və müdafiə məsələləri üzrə Daimi komissiyalarının, həmçinin MDB-də Terrorizm, cinayətkarlıq və narkobizneslə mübarizə sahəsində qanunvericiliyin uyğunlaşdırılması üzrə Birgə komissiyasının iclaslarında iştirak edəcək, müzakirəyə çıxarılan qanunvericilik aktlarına, quruma üzv ölkələr üçün hazırlanan model qanunlara dair fikirlərini bölüşəcəklər.

İclaslarda mədəniyyətlərarası dialoqun vacibliyi, vətəndaşların reproduktiv hüquqlarının müdafiəsi, dövlətin sosial strategiyası, immiqrantların inteqrasiyası, korrupsiyaya qarşı mübarizə, antikorrupsiya monitorinqi, qeyri-qanuni yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı fəaliyyət, açıq telekommunikasiya şəbəkələrinin istismarının hüquqi baxımdan tənzimlənməsi, informasiya təhlükəsizliyinin təkmilləşdirilməsi və uzlaşdırılması kimi aktual məsələlər barədə sənədlərə baxılacaq. Deputat Aslan Cəfərov İqtisadiyyat və maliyyə üzrə Daimi komissiyada "MDB PA-ya üzv ölkələrdə MDB PA-nın iqtisadiyyat və maliyyə sahəsinə dair model qanunlarının istifadəsi" mövzusunda məruzə edəcək. Səfər oktyabrın 19-da başa çatacaq.

**KAMİL**

# *Vahid Əhmədov:* "Gələn il ipoteka kreditləri üçün büdcədə 50 milyon manatdan çox pul ayrılıb"

"2013-cü ilin büdcə zərfi ilə əlaqədar Azərbaycan hökumətində müvafiq müzakirələr gedib və büdcə zərfi artıq cənab prezidentə təqdim olunub. Aldığımız məlumata görə, gələn ilin büdcəsində də rəqəmlərdə müəyyən qədər artım edilib, yəni, 2013-cü ilin büdcəsinin xərclər hissəsi təxminən 20 milyard manata yaxındır". Bu fikirləri "525"-ə açıqlamasında Milli Məclisin (MM) İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov dilə gətirib.

Millət vəkilinin qeyd etdiyinə görə, gələn ilin büdcəsini 2012-ci ilin büdcəsi ilə müqayisə edəndə, xərclər hissəsində nəzərdə tutulan artım göz qabağındadır.

"Növbəti ilin büdcəsində artım böyükdür"- deyə, o bildirib. Bununla belə, millət vəkili bildirib ki, növbəti ilin büdcəsində onları maraqlandıran əsas məsələ sosial sahələrə nə qədər vəsaitin ayrılması məsələsidir: "Biz daha çox bu məsələ maraqlandırır, eyni zamanda, bizi o da maraqlandırır ki, investisiya layihələrinə nə qədər vəsait ayrılıb. Yəni , nə qədər vəsait ayrılıb və bunun da nəticəsində daha çox hansı sahələr inkişaf etdiriləcək? Bizi narahat edən məsələlərdən biri də ipoteka kreditləri ilə əlaqədardır. Çünki bu barədə bizə- millət vəkillərinə vətəndaşlardan, seçicilərdən saysız-hesabsız çoxlu müraciətlər olur. İnsanlar bundan yararlana bilmirlər, onlar da nəhayət, bu ipotekadan faydalanmaq istəyirlər".

V.Əhmədov onu da qeyd edib ki, 2012-ci ilin büdcəsində ipoteka kreditlərinin verilməsi üçün cəmi 26 milyon vəsait ayrılmışdısa, gələn ilin büdcəsində bunun üçün 50 milyon manatdan artıq vəsaitin ayrılması nəzərdə tutulur. "Burada digər məsələlər də var — məsələn gələn il pensiyaların, o cümlədən, təhsil və səhiyyə işçilərinin əmək haqlarının artırılması nəzərdə tutulur ki, bununla əlaqədar olaraq da gələn ilin büdcəsində vəsaitin ayrılması öz əksini tapıb. Ümumiyyətlə, gələn ilin büdcəsində sosial sahələrə daha çox vəsaitin ayrılması nəzərdə tutulur və bu istiqamətə daha çox üstünlük verilir"-deyə, millət vəkili sonra sözlərinə əlavə edib.

**KAMİL**

*Kəşfiyyatçının xatirələri*

# "Qrom-2"nin unudulmuş döyüşçüsü,

## YAXUD İLK ŞƏHİDİMİZİ NECƏ DƏFN ETDİK

**İkinci yazı**



**Qarabağ müharibəsinin gerçək hekayətlərini Lent.az-a kəşfiyyatçı Rey Kərimoğlu yazır**

Bakıda mitinqlər başlayır... Dağlıq Qarabağdan ilk azərbaycanlı köçkünlər gəlir. Ermənilər əvvəlcə azərbaycanlıların evlərini, avtomobillərini, sərnişin avtobuslarını sonra isə özlərini daşa basmağa başlayırlar. Ardınca soyuq silahla, odlu silahla insanlara hücumlar olur... Yaralananların, ölənlərin sayı durmadan artır, azərbaycanlıların evləri yandırılır, özləri qətlə yetirilir.

Dövlət öz vətəndaşlarını erməni hücumlarından qorumağa çalışırdı, amma çox zaman bu missiyanı uğurla həyata keçirməkdə aciz qalırdı... Yerli əhali əli yabalı, dəhrəli kəndlərini qorumağa başladı. Azərbaycan Xalq Cəbhəsi (AXC) yarandı.

Bundan sonra kəndlərimizin müdafiəsi bir qədər sistemli şəkildə təşkil edildi. Sonra başımıza gələn faciələr sıralandı. Nəhayət, 1991-ci ildə nizami ordusuz keçinməyin mümkünsüz olduğunu anladıq. AXC Ağdam rayon şöbəsinin rəhbəri Eldar Bağırov (31 oktyabr 1991-ci ildə Bakıda müəmmalı şəkildə qətlə yetirildi — R.K) başda olmaqla cəbhənin rəhbərliyinin dəvəti ilə Şirin Vəli oğlu Mirzəyev avqustun sonlarında Ağdama gəldi. Onu mən ilk dəfə sentyabrın əvvəlində öz kəndimizdə — Şıxbabalıda gördüm. Sona qədər ona sadiq qalan Kərim Cəlilov və Telman Bağırov onu müşayiət edirdi. Ş.Mirzəyev kənd-kənd gəzib, yeni yaradılacaq Azərbaycan Milli Ordusuna ilk könüllü əsgərləri toplayırdılar.

Ağdamın Mərzili, Abdal-Gülablı, Şıxbabalı-Muğanlı, Şelli, Əhmədavar-Çuxur Məhlə, Əlağalı, Cinli, Qalayçılar, Papravənd kəndləri erməni hədəfində olan kəndlər idi. Ermənilərin tez-tez bu kəndlərə silahlı basqınları olurdu. Şirin Mirzəyev öz yaxın adamları ilə bu kəndlərə səfər edib, könüllülər toplayırdı. Bu kəndlərin ən mərd, dəliqanlı, qoçaq oğlanları qoşulurdu könüllü dəstələrə. Mənim orduya yazılmağım da bu dövrə təsadüf edir.

Əvvəllər könüllülər mülki paltarda olurdular. İlk toplantılarımızın birində rəhmətlik general Valeh Bərşadlı da iştirak edirdi. İlk dəfə V.Bərşadlını Ağdam rayonun 50 saylı texniki peşə məktəbinin futbol meydançasında gördüm. Onun "ordu yaratmağa vaxt lazımdır, vaxtımız isə yoxdur! Bu könüllülərə təlimlər keçmək lazımdır, hələlik "lopatka" verin, səngər qazmağı öyrənsinlər" tapşırığına ilk etiraz edənlərdən biri də mən oldum. Düşünürdük ki, erməni gəlib kəndlərimizi yandırıb, insanlarımız qətlə yetirdiyi bir zamanda bizim səngər qazmağı öyrənməyimiz, sadəcə, vaxt itkisidir. Amma general halıq idi... Sentyabrın sonunda bizə hərbi geyim verdilər. Ağdamın Xaçın-Qərvənd kəndində sürücülük məktəbinin bazasında taborumuzun qərargahı yerləşirdi. Bu qərargahda təlimlər keçir, burdan döyüşlərə, kəşfiyyata yollanırdıq.

O vaxt bizim könüllülər taboruna yazılmaq üçün xeyli müraciətlər olurdu. Təxminən mindən artıq insan müraciət etmişdi. Hamı döyüşmək, torpaqlarımızın müdafiəsində yaxından iştirak etmək istəyirdi. Amma Ş.Mirzəyev onlardan yalnız 520 ya da 530-nu ilk yaratdığı hərbi hissəyə qəbul etdi. Kəndlərdən yığılan könüllülərdən təşkil edilmiş bölüklərin öz adı var idi. Hər bölük könüllülər toplanmış kəndin adı ilə adlanırdı. Ağdamın Seyidli kəndindən gəlmiş könüllülərin dəstəsi "Seyidli rotası", Xıdırlıdan gəlmiş könüllülərin bölüyü "Xıdırlı rotası", Qiyaslı kəndindən gəlmiş əsgərlər "Qiyaslı rotası" və s. adlanırdı.

İlk dəfə bizə hərbi forma ağdamlı, o zamanlarda SSRİ Ali Sovetinin deputatı rəhmətlik Xuraman Abbasovanın maliyyə dəstəyi ilə alınmışdı. Formanı alandan sonra təlimlər başladı. İlk şəhidimizi Xoramurt kəndində verdik. Həmin döyüşdə Xıdırlı rotasından Elbrus Hacıyev şəhid oldu. Onu Xıdırlıda hərbi qaydalara uyğun dəfn elədik.

✦✦✦

ZƏRURİ QEYD: Lent.az-da birinci yazı yayılandan sonra keçmiş döyüşçülərdən və məni tanıyan insanlardan dəstək yönlü xeyli zənglər gəldi. Onlardan biri də 19 ildir Sankt-Peterburq şəhərində yaşadığından üzünü görmədiyim



Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin yaratdığı 836 saylı hərbi hissənin Xıdırlı rotasının komandiri Elbrus Mustafayev idi. Elbrus dedi ki, Bakıdadır, mənimlə görüşmək istəyir və sürprizi var. Görüşdük. Azərbaycan Milli Ordusunun ilk şəhidi E.Hacıyevin 1991-ci il dekabrın 13-də dəfn mərasimində çəkilmiş videolenti mənə təqdim etdi. Lent köhnədir, adi kamera ilə çəkilib, amma fakt və tarix baxımından çox dəyərli və unikal kadrlar var orada. Xeyli insanın qatıldığı dəfn mərasimində, şəhidin məzarı başında üçrəngli Azərbaycan bayrağı tutulub. Rayonun və kəndin ağsaqqalları, aktivləri, Xıdırlı rotasının komandiri Elbrus Mustafayev və Şirin Mirzəyev çıxış edirlər. O kadrlardakı əsgərlərin bir qismi sonrakı döyüşlərdə qəhrəmancasına şəhid oldu — təkcə Ağdamın Xıdırlı kəndindən Qarabağ savaşında 40 döyüşçümüz canını vətən uğurunda qurban verib. Bir qismi ağır yaralanıb, gözlərini, əllərini, ayaqlarını və digər bədən üzvlərini itirənlər oldu. Eləsi də oldu ki, ömürlük yataq xəstəsinə çevrildi. Xatirə yazılarımın gələcək hissələrində adları çəkilən döyüşçü dostlarım da var o kadrlarda. Lent.az-da təqdim etdiyimiz bu kadrlara yaxşı olar ki, özünüz baxasınız...

✦✦✦

Ondan sonra müdafiə xarakterli digər döyüşlərə qatıldıq... Ağdərə, Əsgəran, Xocavənd döyüşlərində iştirak edirdik. Silahımız çatmırdı. 520-dən artıq əsgərin əvvəlcə cəmi 96 avtomatı var idi. Kalaşnikov markalı, 5-45 kalibrli təptəzə avtomatlar paylanmışdı bizə. Bizim Şıxbabalı-Muğanlı rotasına isə cəmi 5, ya da 7 avtomat düşmüşdü. Şıxbabalıdan ilk avtomatlar mənə, Həsənov Ramizə, Nəsirov Nailə (hər ikisi sonrakı döyüşlərdə ağır yaralanıdı — R.K.) və Rəhimov Valehə verildi. Əsas əməliyyatlara silahı olan əsgərlər gedirdi.

Könüllülər əməliyyata getməyəndə küsüb-inciyirdilər. Heç kəs avtomatını başqasına verməyi qəbul eləmirdi. Avtomatı olanlar qəbul eləmirdi silahı başqasına verib əməliyyata göndərməyi. Çox nadir hallarda avtomatını başqasına verib, döyüşə getməyən döyüşçü olurdu. Mən avtomatımı heç vaxt heç kəsə vermədim. Bizim könüllü batalyonumuz Ağdamın ermənilərlə həmsərhəd kəndləri ilə yanaşı başqa rayonlarda da ezamiyyətlərdə olub, o rayonların — Ağdərə, Xocavənd rayonlarının kəndlərinin mühafizəsini təşkil edirdi...

### "Qrom 2"-nin unudulmuş onuncusu

Oktyabrdan artıq kazarma sisteminə keçmişdik... Xaçındərbənddəki sürücülük məktəbində yerləşəsi oldu bizim batalyonumuz. Sürücülük məktəbi hər iki tərəfdən dağlarla əhatə olunmuş, Xaçın çayının sol sahilində, Xaçın su anbarının yaxınlığında idi. Məktəbin həyətində çoxlu hündür şam ağacları var idi. Sonralar əsgərlərimiz o ağacların kölgəsində-cə dincələcək, ata-analarına, bacı-qardaşlarına, həyat yoldaşlarına, nişanlılarına, sevgililərinə məktublar yazacaqlar... İlk döyüş yoldaşlarımızla dostlaşmağımızın, batalyonda çalışan çox az sayda qızlarla əsgərlərin bəzən nakam, bəzən isə uğurlu sevgi hekayələrinin şahidi olduq burada...

Nizamlı ordu yaradılırdı — Azərbaycanın Milli Ordusu! Bu orduda bütün hərbi qayda-qanunlara maksimum əməl edilməyə çalışırdıq. Şirin Mirzəyev təlimlərdə, müdafiə xarakterli, kiçik əməliyyatlarda fərqlənən uşaqlardan (Uşaqlara bax e! Elə əsgər var idi 50, eləsi var idi 65-70 yaşındaydı — R.K.) ibarət hər biri 10 nəfər olmaqla "Qrom" adlı 3 xüsusi döyüş dəstəsi yaratdı — "Qrom 1", "Qrom 2", "Qrom 3".

"Qrom"dan söz düşmüşkən, mütləq deməliyəm ki, bu xüsusi qruplar çox yaxşı döyüşürdülər. Şirin Mirzəyev bu qrupun əsgərlərini ən ağır nöqtələrə döyüşün həlledici anında cəlb edirdi. Və döyüşün nəticəsi mütləq bizim xeyrimizə dəyişirdi.

Yaddaşımı yoxlayım, görüm heç olmasa bizim "Qrom 2"-nin əsgərlərinin hamısının adını birnəfəsə xatırlaya bilirəmmi? Sağ əlimin barmaqlarını qatlaya-qatlaya sayıram: Baxşeyiş Hətəmov, (Əliağalı kəndindən — sonra ağır yaralandı, "Azərbaycan bayrağı" ordeni ilə təltif olunub, indi "Ağdam" qəzetinin baş redaktorudur), Elbrus Allahverdiyev (Əlimədətli kəndindən), Xanlar Hacıyev (Əliağalı kəndindən), Ramiz Həsənov, Nail Nəsirov (Şıxbabalıdandılar — hər ikisi ağır yaralandı). Sonra keçirəm sol əlimin barmaqlarına; Etibar, Rəhman (Muğanlı kəndindən — soyadların dəqiq bilmirəm). Ardı gəlmir! Birnəfəsə 8-nin adını çəkdim. Digər iki nəfəri isə artıq unutmuşam... Əlim qeyri-ixtiyarı cib telefonuna uzanır, Baxşeyişə zəng edib, yuxarıdakı adları ona deyirəm və onun da yaddaşını yoxlayıram:

— Qaqa, "Qrom2"-nin uşaqlarından ikisinin adını unutmuşam, kimi unutmuşam axı?

— Nurələmi! Nurələm Şükürovu unutmusan, dədə! O da sonra şəhid oldu! Əliağalı kəndindən idi, ölümündən sonra "Hərbi xidmətə" görə medalı ilə təltif edilib.

Onuncunu heç Baxşeyiş də xatırlamadı... Amma dedi ki, tapacaq.

Təəssüf ki, digər "Qrom" qruplarında olan heç kəsin adını xatırlamıram. İndi o uşaqların çoxunun sifətini də unutmuşam. Üstündən 20 il keçib, bir çox məqamlar artıq unudulur və mən də bu xatirəni yaddaşıma güvənərək, yaddaşımın pozulan vərəqlərini yenidən təzələyərək oxumağa çalışıram...

**"Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə**

# Mətbuatın mənzərəsi və jurnalistika hazırlığı mühiti: ümumi nəzəri rakursdan baxış

## Bakı Dövlət Universitetinin "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi" kafedrasının dosenti, filologiya elmləri namizədi Akif Rüstəmovla söhbət

***— Akif müəllim, Azərbaycan mətbuatının nəzəri problemləri, müstəqillik dövrü jurnalistikasının sovet dönəmi ilə müqayisəsi və digər məsələlərlə bağlı suallarımıza keçməzdən əvvəl, bu sahə üzrə dəyərli alimlərimizdən biri kimi, Sizin bioqrafiyanız, jurnalistikaya gəlişiniz, fəaliyyət yolunuz barədə məlumatları özünüzdən eşitmək maraqlı olardı.***

— Universitetin birinci kursunda tələbələrə jurnalistikaya gəlişlərinin səbəbi ilə bağlı yazı yazdırırıq. Onların əksəriyyəti həmin məqalələrdə yazır ki, orta məktəbin divar qəzetlərini buraxırdıq, onda həvəsimiz yaranıb. İndi onların sözü olmasın, mənim yaxşı yadımdadır, ya səkkizinci, ya da doqquzuncu sinifdə oxuyurdum, o vaxt "Uzaq sahillərdə" filmi yeni çıxmışdı. Həmin film haqqında ilk dəfə Ağdamın rayon qəzetində — "Lenin yolu"nda resenziya yazıb çap etdirdim. Demirəm, o resenziya əla idi, çox peşəkar yazılmışdı. Orta məktəb şagirdinin film haqqında rəyi idi. Lakin ilk dəfə imzamı qəzetdə görəndən sonra məndə bu bu peşəyə maraq oyandı. Orta məktəbdə yaxşı oxumuşam, fərqlənmə attestatı ilə bitirməsəm də, əsas fənlərdən əla alırdım. Bir dəfə bizə tarixdən dərs verən Soltan müəllim dedi ki, bir balaca səy göstərsən, qızıl medal ala bilərsən, amma buna bir o qədər də həvəs göstərmədim. İlk dəfə sənədlərimi verəndə jurnalistikaya daxil ola bilməmişəm. Çünki o vaxt tələbə qəbulu indikindən çox fərqlənirdi. İlk növbədə iki il iş təcrübəsi olanlara üstünlük verilirdi. Mənim təcrübəm olmadığına görə təkcə yığdığım balla jurnalistika fakültəsinə düşə bilmədim. Sonralar işlədim və arzuma çatdım — jurnalistikaya daxil oldum. İlk müəllimlərim Nurəddin Babayev, Nəsir İmanquliyev, Famil Mehdiyev kimi çox dəyərli ziyalılarımız olub.

***— Ailədə ali təhsil alan ilk övlad idiniz, yoxsa sizdən əvvəlki ənənəni davam etdirmisiniz?***

— Ailədə beş uşaq olmuşuq. Üç qız, iki oğlan. Məndən əvvəl bacımın biri ali məktəbi bitirmişdi- Bakı Dövlət Universitetinin tarix fakültəsinin rus bölməsini. Ondan kiçik bacım texnikum qurtarmışdı, rayonda müəllimə işləyirdi. Ondan sonrakı bacım riyaziyyatdan dərs deyirdi. Qardaşım politexnik institutunu bitirmişdi. O vaxtlar mənim atam rayonda katib işləyirdi, o səbəbdən də övladlarını rus məktəblərində oxutmuşdu. Həmin dövrdə vəzifəli şəxslərin əksəriyyətinin uşaqları məktəbin rus bölmələrində oxuyurdular. Atam rəhmətə gedəndə isə qardaşım rus məktəbindən qaçdı. Və sonra məni buna görə rus məktəbinə qoymadılar. Mən uşaqların yaşca ən kiçiyi olmuşam. Məndən əvvəlki bacı-qardaşlarım hamısı oxumuşdular və mən də ağlım kəsəndən ailəmizdə elmə, təhsilə maraq görmüşdüm.

***— Jurnalistika fakültəsinə hansı istehsalat sahəsindən gəldiniz?***

— Rayona qayıtdıqdan sonra bir müddət Ağdamda Dövlət Bankında nəzarətçi işlədim. İstədilər ki məni oradan Moskvaya, iqtisadiyyatla bağlı ali məktəbə göndərsinlər. Həvəsim olmadığına görə getmədim. Ürəyimdə jurnalist olmaq arzusu vardı, vəssalam.

***— Tələbəlik illərini necə xatırlayırsınız?***

— Çox maraqlı tələbəlik illərim olub. Əvvəlcə mən əyanidə oxuyurdum, sonra məllimim Nurəddin Babayev məni çağırıb dedi ki, Akif, səni universitetdə saxlamaq istəyirik. Sonra mən qiyabi şöbəyə keçdim. Tələbəliyimin axırıncı illəri idi. Soruşdum ki, Nurəddin müəllim, mən burada nə iş görəcəm? Dedi, qorxursan? Cavab verdim ki, qorxmuram, amma bilim də. Dedi, gəl işlə, görərsən. Birinci gün işə gələndə mənə altı aydan bəri qalmış qəzetləri tikdirdilər. Dedilər, bu qəzetləri sahmana sal, "podşivka" üçün hazırla. Mən də yerinə yetirdim. İlk işim bundan ibarət idi. Heç ağlıma gəlməzdi ki, qurtarıb burada qalaram. Onun təklifindən sonra mən orada qaldım. İlk əmrimi universitet qəzetinə ədəbi işçi vəzifəsinə vermişdilər. Amma mən kafedrada işlədim. Universiteti bitirəndən sonra mənə mövzu götürməyi məsləhət gördülər, çünki burada



axıra kimi laborant qalmaq olmazdı. Mövzum gənclərin mətbuatda fəaliyyəti, xüsusilə də "Molodyoj Azerbaydjana" qəzeti ilə bağlı idi. Mövzunu Azərbaycan dilində yazdım, sonra rus dilinə tərcümə elətdirdim. Ona görə ki, müdafiə eləmək üçün burada Şura yox idi, Gürcüstana getməli oldum.

***— Nəyə görə praktik jurnalistikanı seçmədiniz, nəzəriyyəçi olaraq universitetdə qalmağa qərar verdiniz?***

— Söz açılmışkən qeyd edim ki, bizim ən böyük səhvimiz nəzəriyyəyə çox yer verməyimizdi. Universitetdə dekan olduğum vaxt yadımdadır ki, Fransa universitetlərinin birindən müəllim dəvət eləmişdik. O bir müddət bizdə dərs dedi. Bir dəfə bizə irad tutdu ki, nəzəriyyəyə lap çox yer vermək olmaz, jurnalistikada praktika aparıcı olmalıdır. Demirəm ki, biz onun dediklərini ehkam kimi qəbul edək, lakin etiraf olunmalıdır ki, o müəllimin sözlərində həqiqət var. Jurnalist olacaq tələbəyə bütün günü mühazirə yazdırmaqdansa, onun özünə sərbəst yazılar yazdırmaq lazımdır. Jurnalist yaza-yaza püxtələşir, öyrənir. Nəzəriyyə lazımdır, amma ona çox geniş yer verməyə ehtiyac yoxdur. Bir var, müəllim deyə ki, qəzet belə çıxır, belə çap olunur, bir də var tələbələri aparıb nəşriyyatda əyani şəkildə bu prosesi göstərirsən. Bir dəfə universitetdə Əliş müəllim bizi nəşriyyata aparıb qəzet çapını göstərdi. İndiyə kimi təfərrüatları ilə yadımdadır qəzet necə çap olunur. Onda indiki kimi deyildi, hərfləri bircə-bircə əllə yığırdılar. Düzdür, indi texnika bir az dəyişib, kompüterlə hər şey həll olunur. Hər halda tələbə o prosesi əyani olaraq görməlidir, izləməlidir. Necə deyərlər, tələbə o "mətbəx"də nələr baş verdiyindən, sözün əsl mənasında xəbərdar olmalıdır, orada nə "bişdiyini" öz gözləri ilə görməlidir. O vaxtlar qərb nəzəriyyəçiləri ilə bizim nəzəriyyəçilərin fikirləri arasında da fərqlər var idi. Düzdür, sovet dövründə deyilirdi ki, obyektiv, qərəzsiz, vicdanlı olmaq lazımdır. Bizim fakültəmiz ideoloji fakültə idi. Buna görə də heç vaxt bizim təyinatımızı Təhsil Nazirliyi bölmürdü, Mərkəzi Komitə müəyyənləşdirirdi. Praktik jurnalistikaya gəlincə, heç vaxt bu barədə fikirləşməmişəm. Burada müəllim kimi qaldığıma görə də heç vaxt peşman olmamışam.

***— Mətbuatda, televiziyada demək olar ki, görünmürsünüz?***

— Bir məsələni qeyd edim ki, bəzi adamlar televiziyada görünməyi çox xoşlayırlar. Bəzən praktik jurnalistikaya da daha çox üzdə olmaq, görünmək üçün üz tuturlar. Mən hətta dekan işləyəndə də ildə bir-iki dəfə televiziyada ya görünərdim, ya görünməzdim. Nəsə özümü reklam eləməyi xoşlamamışam. Mətbuatda çox görünməyi sevmirəm. Özümə görə səbəblərim var. "Əkinçi" qəzetinin yubilyei ilə bağlı bir dəfə universitetdə bir tədbir keçirirdilər. Orada bir cümlə işlətdim. Qəzetlərin biri həmin cümləmi başlığa çıxararaq yazdı: dekan Akif Rüstəmov və sair... Onda dekan işləmirdim. Məqalənin müəllfinə zəng elədim ki, mən dekan vəzifəsindən çıxmışam, niyə informasiyanı dəqiqləşdirməmiş onu çap edirsən? Jurnalistika fakültəsində müəllim işləsəm də, bəzi jurnalistlərimizə tənqid ünvanlamaq istərdim: onların bəziləri informasiyanı olduğu kimi yazmaq yerinə bəzən uydurmaçılıqla məşğul olurlar. Bəzi jurnalistlər tərifləyəndə də həddi aşırlar, tənqid edəndə də qaşınmayan yerdən qan çıxarırlar.

***—Söhbətinizdə qeyd edirsiniz ki, tələbə praktikaya çox yer ayırmalıdır. Hazırda BDU-nun jurnalistika fakültəsində tələbənin jurnalist kimi yetişməsi üçün lazımi şərait varmı?***

— Əvvəla, bizdə praktik məşğələlər var. Qəzetdə, televiziyada praktik məşğələlər keçirilir. Elə sizin qəzetinizin baş redaktoru Rəşad Məcid bu tələbələrlə praktik məşğələlər keçir, öyrədir. Tələbələr "525-ci qəzet"ə gedirlər, baxırlar, qəzetin ərsəyə gəlməsi prosesi ilə əyani tanış olurlar. Bu praktika çox önəmlidir. O vaxt Gürcüstana müdafiəyə gedəndə bir məsələnin şahidi oldum. Baxdım ki, jurnalistika fakültəsində bir gündə 6 saat ərzində bütün dərslər praktik məşğələlərdən ibarətdir. Dedim ki, bir gündə 6 saat da praktik məşğələ olarmı? Onda mənə cavab verdilər ki, biz bu dərsi televiziyada keçirik, tələbə həmin gün auditoriyaya gəlmir. Həmin gün tələbələr ancaq televiziyada olub çəkiliş prosesində olurlar, öyrənirlər. Biz də bu təcrübədən yararlanmalıyıq. Jurnalistika fakültəsində hər şeyi auditoriya ilə bağlamaq vacib deyil. Gələcəyin jurnalisti çəkiliş meydanında, qəzet redaksiyasında işləməyi öyrənməlidir. Bizdə universitetdə yaradıcılıq studiyası var. UNESKO-nun hesabına təmir edib düzəltmişik. Orada operatorumuz var, çəkiliş aparır, sonra montaj olunur, müəyyən proqramlar, mətnlər hazırlanır. Axı auditoriyada bunu eləmək olmur. Jurnalistin tədqiqat obyekti həyatdır. O nə yazırsa, nə informasiya hazırlayırsa, həyatdan gətirir və gətirməlidir.

***— Sovet dövrü mətbuatı ilə çağdaş jurnalistikamızın müqayisəli təhlilində hansı əsas fərqləri, müsbət və mənfi cəhətləri qeyd edərdiniz?***

— Demək olmaz ki, sovet dövrü tamamilə pis idi, müstəqillik dövründən sonra da hər şey yaxşıdır. Hər dövrün özünəməxsus üstünlükləri və çatışmazlıqları olur. Bu gün jurnalistikamızın problemləri deyəndə, ən böyük problem fikrimcə, jurnalistlərin etik davranışları, peşə kodeksinin pozulmaları ilə bağlıdır. Etik qaydaların pozulması hallarını araşdırsaq görərik ki, bunu edənlərin əksəriyyəti jurnalistika fakültəsini bitirməyənlərdir. Çünki jurnalistika fakültəsində tələbələrə etik qaydalarla bağlı fənn tədris olunur, onlara illərlə jurnalist etikası aşılanır. Eyni informasiyanı hər mətbuat orqanı informasiya siyasətinə uyğun- müxtəlif şəkildə təqdim edir. Sovet dönəmi qəzetlərinin üstün cəhətləri var idi. Bir nüansı xüsusilə qeyd etmək istərdim. O vaxtlar sovet qəzetlərində "Bizim çıxışımızdan sonra", "Qəzetlər yazandan sonra" və sair bu kimi başlıqlı rubrikalar vardı. Orada tənqid olunan müəssisədən gələn cavab, tənqiddən sonra çıxarılan nəticə öz əksini tapırdı. İndi tənqidi yazı yazırsan, heç kəsin vecinə də deyil. Təəssüf ki, müstəqillik dövrü mətbuatı bu gücə malik deyil. Sovet dövrü mətbuatının mənfi cəhəti isə birpartiyalı sistemə xidmət etməsi idi. Bir qəzetdə nə yazılırdısa, hamısı eyni məlumatı yazırdı. Sovet dövrü mətbuatı vahid kommunist ideologiyasına xidmət edirdi. Amma indi




qəzetlərin hər baxımdan rəngarəngliyi var. Jurnalistlərin əl-qolu açılıb, istədiklərini yazırlar. Xüsusilə 1998-ci ilin avqustunda senzura ləğv olundu, ondan sonra qəzetlərdə böyük inkişaf yarandı. İndi qəzetlər çox mövzulara toxunurlar. Televiziyalarda sosial məsələlər, problemlər qabardılır. Misal üçün deyək ki, indi ANS-in "İç xəbər" proqramında müxtəlif sosial problemlər işıqlandırılır. Amma arzu edərdim ki, əvvəllər ANS-in efirində gedən siyasi debatlar yenidən bərpa edilsin. Plüralizmin təmini üçün bu da lazımdı. Nəyi verib-vermirlər, əlbəttə, bu hər bir televiziya kanalının öz işidi, öz informasiya siyasətidir. Amma hər halda bu cür debatların çox sevildiyini də diqqətə çatdırmağı özümə borc bilirəm. Məsələn, Rusiya televiziyalarında saatlarla sosial, siyasi və başqa mövzularda debatlar, diskussiyalar, tok-şoular təşkil olunur. Bunlar əhali tərəfindən də çox izlənilir və bəyənilir. İstərdim ki, bizim televiziyalarımzda da belə səviyyəli proqramlar, tamaşaçını bir nəfər kimi ekran qarşısına yığmağı bacaran verilişlər hazırlansın. Bugünlərdə İvanişvilinin "Gürcü arzusu" qalib gələndən sonra Rusiya televiziyalarının birində "Bundan sonra Gürcüstan hansı siyasəti yürüdəcək" mövzusunda debat təşkil edilmişdi. Çox səviyyəli və sanballı proqram idi. Belə proqramlara baxanda tamaşaçı ləzzət alır.

**(Ardı var)**

**Sevinc MÜRVƏTQIZI**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# 114 mindən çox daşınmaz əmlak qeydiyyata alınıb

Əmlak Məsələləri Dövlət Komitəsində dövlət əmlakının idarə edilməsi, qorunub saxlanılması, ondan səmərəli istifadə edilməsi, dövlət mülkiyyətinin özəlləşdirilməsi, icarəyə verilməsi, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı, daşınmaz əmlakın vahid kadastrının aparılması istiqamətlərində 2012-ci ilin 9 ayı ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair iclas keçirilib.

İclası ƏMDK-nın sədri Kərəm Həsənov giriş sözü ilə açaraq bildirib ki, Komitə tərəfindən 2012-ci ilin 9 ayı ərzində Azərbaycan Prezidentinin fərman və sərəncamları ilə verilmiş tapşırıqlara əsasən tədbirlərin icrası davam etdirilib. Onun sözlərinə görə, Komitənin fəaliyyət proseslərində, o cümlədən dövlət əmlakının özəlləşdirilməsi və daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı sahələrində səmərəli nəticələrin əldə edilməsi, qanunçuluğun, vətəndaşların hüquq və azadlıqlarının səmərəli şəkildə təmin olunması, şəffaflığın daha da artırılması, korrupsiya hallarının qarşısının alınması məsələlər diqqət mərkəzində saxlanılıb: "Elektron xidmətlər sahəsində komitə tərəfindən müvafiq işlər həyata keçirilib. Belə ki, artıq komitə tərəfindən bir sıra fəaliyyət istiqamətləri üzrə, o cümlədən daşınmaz əmlak üzərində hüquqların təkrar qeydiyyatı və yüklülük arayışlarının alınması, müsadirə edilmiş əmlakın satışı ilə bağlı da keçirilən hərraclarda iştirak etmək elektron xidmətlər tətbiq edilir. Yaxın zamanlarda komitə tərəfindən göstəriləcək elektron xidmətlərin daha da genişləndirilməsi nəzərdə tutulur".

Həmçinin bildirilib ki, ötən il dövlət əmlakının özəlləşdirilməsi, daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatı, daşınmaz əmlakın vahid kadastrının aparılması və ünvan reyestrinin yaradılması sahələrində inkişaf etmiş ölkələrin qabaqcıl təcrübələrinin öyrənilməsi məqsədilə Dünya Bankı, Almaniya İnkişaf Bankı (KfW), Almaniyanın Beynəlxalq Əməkdaşlıq (GİZ) təşkilatı, Norveç Kadastr və Xəritəçəkmə təşkilatı və digər xarici qurumlarla layihələr həyata keçirilir.

İclasda komitənin digər fəaliyyət istiqamətləri üzrə məruzələr dinlənilib. Bildirilib ki, Hesabat müddətində dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, daşınmaz əmlaka dair hüquqların qeydiyyatı və daşınmaz əmlakın kadastrı ilə bağlı fəaliyyət sahələrini tənzimləyən 20 normativ hüquqi (normativ) xarakterli sənəd layihələri hazırlanıb. Eləcə də, 9 ayda ümumilikdə respublika üzrə kiçik özəlləşdirmə formasında 600-ə yaxın müəssisə və obyekt, eyni zamanda 370-ə yaxın obyektin yerləşdiyi torpaq sahəsi özəlləşdirilib. Səhmlərin satışı üzrə keçirilmiş 50-ə yaxın pul və ixtisaslaşdırılmış pul hərracında 30-a yaxın səhmdar cəmiyyətin səhmləri satılıb.

Daşınmaz əmlakın qeydiyyatı sisteminin inkişaf etdirilməsi və qabaqcıl iş təcrubəsinin tətbiqi məqsədi ilə informasiya sistemlərinin və məlumat bazalarının mərkəzləşdirilməsi, korporativ şəbəkənin qurulması, ərazi qeydiyyat idarələrinin müasirləşdirilməsi, maddi-texniki təminatının yaxşılaşdırılması, arxivlərin elektron formata keçirilməsi, müasir texnologiyaların, avadanlıq və geodezik cihazlarların alınması, işçilərin bilik və bacarıqlarının artırılması sahələrində tədbirlər davam etdirilib.

Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsinə dair Azərbaycan hökuməti ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişinin icrası ilə bağlı tədbirlər davam etdirilib.

2012-ci ilin 9 ayı ərzində respublika üzrə 114 mindən çox daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınıb. Bunlardan 33 minə yaxını ilkin, 81 mindən çoxu isə təkrar qeydiyyat olub.

Bununla yanaşı, hesabat müddətində 25 min ipoteka müqaviləsi dövlət qeydiyyatına alınıb. Hüquqi və fiziki şəxslərə dövlət reyestrindən 84 min məhdudiyyət arayışı, əhaliyə xidmətlə bağlı 21 minə yaxın digər müxtəlif məzmunlu arayışlar verilib.

2012-ci ilin 9 ayı ərzində 107 min daşınmaz əmlakın texniki inventarlaşdırılması aparılaraq texniki pasport tərtib edilib.

Ötən müddətdə daşınmaz əmlakın vahid kadastrının aparılması, ünvan reyestri və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi sahələrində müəyyən edilmiş tədbirlər həyata keçirilib. Daşınmaz əmlakın vahid dövlət kadastrının tərtib edilməsi və aparılması istiqamətində "Sumqayıt şəhəri üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının yaradılması və rəqəmsal kadastr xəritələrinin tərtibi" Layihəsi başa çatmaq üzrədir. "Bakı şəhəri üzrə daşınmaz əmlaklar haqqında elektron kadastr məlumat bazasının yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtibi" işlərinə başlanılıb.

Azərbaycanda ünvan reyestri informasiya sisteminin yaradılması ilə bağlı işlər başa çatdırılmaq üzrədir, 2013-cü ilin yanvarın 1-dən ünvanlar yeni qaydalara əsasən veriləcək, küçə və binalara müasir dizaynlı ünvan lövhələri vurulacaq.

Azərbaycanda yeni formalaşdırılan irihəcmli daşınmaz əmlak obyektlərinin inşası üçün nəzərdə tutulmuş ərazilərin kadastr planlarının tərtibi və onlardan çıxarışların verilməsi istiqamətində işlər görülüb.

2012-ci ilin 9 ayı ərzində dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və digər dövlətlərin aidiyyəti qurumları ilə o cümlədən Dünya Bankı, BMT-nin Avropa İqtisadi Komissiyası, Almaniyanın KfW Bankı, Norveç Kadastr Təşkilatı, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), USAİD, Bolqarıstan Respublikasının Özəlləşdirmə və Özəlləşdirmədən sonra Nəzarət Agentliyi, Evrogeorafiks, Avropa İttifaqının Tvinninq və TAİEX təşkilatları ilə əməkdaşlıq həyata keçirilib.

**BƏXTİYAR**

# Etilen-polietilen zavodu məhsul istehsalına başlayıb

"Azərikimya" İstehsalat Birliyinin Etilen-polietilen zavodunda əsaslı təmirdən sonra məhsul istehsalına başlanılıb. "Azərikimya"dan verilən məlumata görə, müəssisənin həm "EP-300", həm də "Polimir-120" komplekslərinin geniş miqyasda və keyfiyyətli, daha etibarlı təmirinin nəticəsi olaraq artıq etilenin və polietilenin, həmçinin digər kimyəvi məhsulların fasiləsiz istehsalına, sifarişçilərə göndərmək üçün onların ilk böyük həcmli partiyalarının alınmasına başlanılıb.Müəssisənin ilkin emal istehsalat sahəsi olan "EP-300" qurğusunun piroliz sobalarının, sexlərdəki rektifikasiya kalonlarının, turbokompressorların, istilikdəyişdiricilərin, susoyutma kompleksinin və s. keyfiyyətli təmiri nəticəsində bütün texnoloji kompleksin sınaq-sazlama işləri və buraxılış prosesləri uğurla yekunlaşıb. Birliyin və müəssisənin aparıcı mütəxəsislərinin, təmir-tikinti, nəqliyyat və xüsusi texnika idarələrinin təmir-



çilərinin, həmçinin müasir texnikanın cəlb olunduğu əsaslı təmir zamanı qurğu və avadanlıqlarda bir sıra mühüm texniki yeniliklərin və texnologiyaların tətbiqinə nail olunub. 1987-ci ildə istismara verilmiş "EP-300" qurğusunun mühüm aqreqatlarından olan turbokompressorların təmiri isə ilk dəfə olaraq Çexiyadan olan istehsalçı müəssisəsinin — "Siemens"s.r.o. firmasının bu sahə üzrə ixtisaslaşmış zavodunun mütəxəssislərinin iştirakı ilə həyata keçirilib.

**BƏXTİYAR**

# "Baku Card"ın "SKAL" Beynəlxalq Turizm Peşəkarları Assosiasiyasında təqdimatı olub

Artıq dünyanın digər paytaxt şəhərlərində olduğu kimi Bakıda da Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə muzeylər, mədənniyət mərkəzləri, nəqliyyat vasitələri, AVM, kafe və restoranlarda endirimlər tətbiq edən hazır (prepaid) səyahət kartı olacaq. Azərbaycan Sənaye Bankının 2012 Avroviziya mahnı müsabiqəsi ərəfəsində Mədəniyyət və Turizm Nazirliyi, Mastercard və Milli Kart Prosesinq Mərkəzi işbirliyi ilə bazara çıxardığı "Baku Card" hazır səyahət kartı artıq yeni — şəhər kartı konsepsiyası ilə yenidən istehlakçılarla görüşəcək. Belə ki, bununla bağlı ilk təqdimat "SKAL" Beynəlxalq Turizm Peşəkarları Assosiasiyasının 11-ci toplantısında turizm ictimaiyyətinə təqdim olunub. Toplantıda turizm agentliklərinin nümayəndələri, sahibkarlar, Mədəniyyət və Turizm nazirliyinin nümayəndələri iştirak edib. Təqdimatda çıxış edən ASB-nin İdarə Heyətinin üzvü cənab Cenk Bartın "Baku Card"la bağlı hesabat xarakterli geniş məlumat verib. Bununla yanaşı səyahət paketinin hazırkı vəziyyətdə mövqeyinin gücləndirilməsi üçün görüləcək işlər haqqında da müzakirələr aparılıb.

Beynəlxalq ödəniş vasitəsi olan, Maestro loqolu "Baku Card"ın Mədəniyyət və Turizm Nazirliyinin




dəstəyi ilə Bakının bütün turizm obyektlərində-muzeylər, mədəniyyət mərkəzləri, teatrlar, nəqliyyat vasitələri, milli parklarda həmçinin alış veriş mərkəzləri, hotel, restoran, kafelərdə endirimlər tətbiq etməsi planlaşdırılır. Hazırda isə Baku Card vasitəsilə 100-dən çox alış-veriş və xidmət məntəqəsində endirimlər tətbiq edilməkdədir.

"Baku Card"ı həm fərdi həm də qruplar üçün toplu şəkildə turizm məlumat mərkəzlərindən, turizm agentliklərindən, və hotellərdən almaq mümkün olacaq.

**BƏXTİYAR**

# Cəlilabadda mebel istehsalı müəssisəsinə qadağa qoyuldu

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidmətinin Lənkəran Ərazi İdarəsi tərəfindən Cəlilabad rayonu, Qarazəncir kəndində fəaliyyət göstərən "DALĞA-94" MMC-də mebel istehsalına dövlət nəzarəti həyata keçirilib. Komitədən verilən məlumata görə. araşdırma zamanı müəyyən olunub ki, müəssisədə mebellər (divan, kreslo, yataq dəsti, stol və stul) AZS Milli Sertifikatlaşdırma sisteminin qaydalarına zidd olaraq sertifikatlaşdırılmadan istehsal olunur. İstehsal zamanı istifadə olunan 104 ədəd ölçmə vasitəsi müqayisəli dövlət yoxlamasından keçməmiş istifadə olunur ki, bu da "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Qanunun tələblərinə uyğun deyil. İstehsal olunmuş mebellərin üzərində markalanma aparılmır, müəssisənin adı və ünvanı göstərilmir.

Aşkar olunmuş bu və digər nöqsanlarla əlaqədar olaraq "DALĞA-94" MMC-yə inzibati protokol tərtib edilib, müəssisədə istehsal olunan mebellərin (divan, kreslo, yataq dəsti, stol və stul) istehsalı və satışı qadağan edilib.

**BƏXTİYAR**

# Hüseyn Cavidin 130 illik yubileyi Naxçıvanda qeyd edilib



Milli Elmlər Akademiyasının (AMEA) Naxçıvan Bölməsində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 130 illik yubileyi ilə əlaqədar simpozium keçirilib. AMEA-dan qəzetimizə verilən məlumata görə, Naxçıvan Muxtar Respublikası (MR) Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Naxçıvan MR Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq görkəmli şair və dramaturq Hüseyn Cavidin həyat və yaradıcılığından, ədibin poetik irsinin bütün dövrlər üçün aktuallıq kəsb etməsindən söhbət açıb. Akademik görkəmli şairin istintaq olunması və uzaq Sibirə sürgün edilməsi, repressiya illərinin acı faciələri, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ədibin nəşinin Vətənə gətirilməsi, Cavidin məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması haqqında ətraflı məlumat verib: "Zamanın ümumbəşəri problemlərinin qaldırıldığı dram əsərləri ilə Hüseyn Cavid romantizmin görkəmli nümayəndələrindən biri kimi Azərbaycan dramaturgiyası tarixində yeni bir mərhələ yaradıb. Azərbaycan ədəbiyyatında mənzum faciə və tarixi dramların ilk nümunələrini yaradan sənətkar ədəbiyyatımızı həm mövzu baxımından, həm də parlaq xarakterlərlə zənginləşdirərək milli bədii fikir tariximizdə mühüm yer tutub". İ.Hacıyev 2008-ci ildə ədibin həyatı və yaradıcılığı ilə bağlı AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun ədəbiyyatşünaslıq şöbəsinin tərtib etdiyi "Hüseyn Cavid: taleyi və sənəti (məqalələr)" kitabının nəşr olunduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəylinin "Hüseyn Cavidin sənətkarlıq xüsusiyyətləri", AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımlının "Hüseyn Cavidin həyat və yaradıcılığı", Naxçıvan MR Yazıçılar Birliyinin sədri Asim Yadigarlının "Heydər Əliyev və Hüseyn Cavid", Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Kamran Quliyevin "Hüseyn Cavidin əsərləri Naxçıvan teatrının səhnəsində", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Hüseyn Cavidin dili haqqında" mövzularında məruzələri dinlənilib.

AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanasında Hüseyn Cavidin anadan olmasının 130 illik yubileyi ilə bağlı ədibin əsərlərindən ibarət "Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi" mövzusunda sərgi də təşkil edilib.

**S.MÜRVƏTQIZI**

## Heydər Əliyev Fondunun dəstəyi ilə Fransada sərgi və konfranslar keçiriləcək

Heydər Əliyev Fondunun dəstəyi ilə oktyabrın 19-dan noyabrın 12-dək Fransanın müxtəlif regionlarında Azərbaycanın mədəniyyət və incəsənətinə həsr olunmuş sərgi və konsertlər keçirilməsi nəzərdə tutulur.

Fonddan APA-ya verilən məlumata görə, silsilə tədbirlərin təşkili ölkələrarası mədəni əlaqələrin möhkəmlənməsinə, Azərbaycanın dünyada tanınmasına və xalqlararası anlaşmaya xidmət edir.

Regional tədbirlər silsiləsi Fransanın Reims şəhərindən başlayacaq. İlk tədbir 19-22 oktyabr tarixlərində bu şəhərdəki Tattinger House adlanan tarixi binada və Reims Konservatoriyasında keçiriləcək. Daha sonra tədbirlərin Fransanın Chalons-en-Champagne, Niort, Cognac, Romarantin-Lanthenay şəhərlərində keçirilməsi və hər şəhərdə üç gün davam etməsi planlaşdırılır.

Xüsusi tərtibatla işlənib asılmış afişalar, yerli kütləvi informasiya vasitələrinin tədbirlə bağlı informasiyaları artıq şəhər ictimaiyyətini məlumatlandırıb. Yerli meriya nümayəndələrinin dəstəyi ilə keçiriləcək sərgilərdə fransızlar Azərbaycanın çoxəsrlik zəngin mədəni irsi, incəsənəti ilə yaxından tanış olmaq imkanı qazanacaqlar. Sərgi ekspozisiyalarında Azərbaycan miniatürləri, qədim xalçalar, arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət nümunələri, milli musiqi alətləri, geyim və tikmələr, mis və keramik qablar nümayiş olunacaq. Konsert proqramlarında Azərbaycan Dövlət Kamera Orkestrinin ifası, həmçinin klassik və milli musiqi ifaçılarının çıxışı nəzərdə tutulur.

## Mətbuat Şurasında "Media və Azərbaycan ədəbi dilinin qorunması" müzakirə edilib

Mətbuat Şurasında (MŞ) bu qurumun Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) maliyyə yardımı ilə reallaşdırdığı "Media və ana dilindən istifadə xüsusiyyətləri" layihəsi çərçivəsində "Media və Azərbaycan ədəbi dilinin qorunması" mövzusunda dəyirmi masa təşkil edilib. Tədbirdə Mətbuat Şurası idarə heyətinin üzvləri, ölkəmizdə müntəzəm yayımlanan, ictimai fikrə təsir göstərən KİVlərin rəhbərləri, dilçi alimlər və media ekspertləri iştirak ediblər. Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov layihəni zəruriləşdirən məqamlardan söz açıb: "Mətbuat Şurası ötən il də KİVDF-nin maliyyə dəstəyi ilə mediada ana dilimizin normalarına əməl edilməsi ilə bağlı layihə reallaşdırıb. Həmin layihə KİVlərdə işıqlandırılıb, eyni zamanda, layihə çərçivəsində keçirilən tədbirlərdə müzakirə olunan nöqsanların aradan qaldırılması istiqamətində ayrı-ayrı mətbu orqanlar tərəfindən təşəbbüslər irəli sürülüb. Şuranın sonrakı monitorinqlərinin nəticələri də mövcud sahədə bəzi müsbət meyllərin yarandığını deməyə əsas verir. Bununla belə, mediamızın ana dilindən istifadəsində meydana çıxan problemlər hələ də aktuallığını qorumaqdadır və Mətbuat Şurası bunu nəzərə alaraq bu il ötənilki prosesin davamı olaraq layihəni reallaşdırmaq qərarına gəlib. Burada əsas xətt ölkənin media orqanlarının Azərbaycan ədəbi dilinin normalarının qorunmasına nə dərəcədə riayət etdiklərini müəyyənləşdirməkdən, konkret meyilləri izləməkdən, qarşıya çıxan problemləri qruplaşdırmaqdan, bu kimi məsələlər barədə ictimaiyyətin məlumatlandırılmasını təmin etməkdən ibarətdir. Mövcud istiqamətdəki başlıca fəaliyyət isə aylıq monitorinqin keçirilməsi olub". Qeyd olunub ki, üç aylıq monitorinqin nəticələrinə əsasən, 30 qəzetdə ümumilikdə 2993 pozuntu faktı müəyyənləşdirilib: "Bunların 437-si alınma sözlərin, 208-i terminlərin işlədilməsi ilə əlaqədardır. Dialekt və şivə sözlərinin işlədilməsinə dair 96, neologizmlərin yaradılması və işlədilməsi ilə bağlı 278 pozuntu halına yol verilib. Üslubi pozuntuların ümumi sayı isə 1323-dür".

Layihə üzrə yaradılmış monitorinq qrupunun rəhbəri, "Xalq qəzeti"nin şöbə müdiri İlham Abbasov monitorinq zamanı aşkarlanmış konkret meyillərdən danışıb. Ümumi nəzərə çarpan cəhət kimi rəsmi qəzetlərdə dil və üslub səhvlərinin nisbətən azlığından söz açan İ.Abbasov səbəb kimi peşəkarlıq amilini deyil, ümumən, qəzetçilik texnologiyasına yanaşmanı göstərərək, aşkara çıxarılmış nöqsanların bir çoxunun həmin texnologiyanın işləməməsi ilə əlaqəli olduğunu deyib: "Monitorinq zamanı daha çox qrammatik və üslub pozuntularına yol verildiyi müəyyənləşdirilib".

Milli Məclisin deputatı, Mətbuat Şurasının dil komissiyasının sədri Bəxtiyar Sadıqov, MŞ idarə heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının sədri, professor Cahangir Məmmədli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "Ədalət" qəzetinin baş redaktoru İradə Tuncay, BDU-nun jurnalistika fakültəsinin professoru Nəsir Əhmədli və başqaları Azərbaycan ədəbi dilinin qorunması məsələsinin daim gündəmdə saxlanılmasının vacibliyini vurğulayıb.

Ədəbi dilimizin ayrı-ayrı problemlərinə toxunulan çıxışlarda layihənin cari ilin son üç ayını əhatə edəcək ikinci mərhələsində dəyirmi masada səslənən fikirlərlə bağlı əməli işlərin görülməsinin vacibliyi tövsiyə olunub.

**S.MÜRVƏTQIZI**

## Əli Əmirlinin "Köhnə ev"i Sumqayıt səhnəsində

Görkəmli dramaturq Əli Əmirlinin "Köhnə ev" əsəri Sumqayıt Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulub. 90-cı illərin əvvəllərindən start götürən bazar iqtisadiyyatının yetişdirdiyi yeni insan münasibətlərindən bəhs edən əsərə səhnə quruluşunu teatrın rejissoru, əməkdar artist Namis Şirməmmədov verib. Tamaşanın rəssamı Sevinc Həsənovadır.

Sumqayıt teatrsevərlərinə təqdim olunan premyerada baş rollarda əməkdar artist Növrəstə Həşimova, Xatirə Süleymanova, Mövsüm Hüseynov, Mətləb Kəsərli və başqaları çıxış edib. Qeyd edək ki, "Köhnə ev" 1996-cı ildə Akademik Milli Dram Teatrında, sonralar ölkənin bir çox teatrlarında, habelə Gürcüstanın paytaxtı Tiflis şəhərində də tamaşaya qoyulub.

Qeyd edək ki, "Köhnə ev" Sumqayıt teatrının Əli Əmirli dramaturgiyasına üçüncü müraciətidir. "Köhnə ev"dən qabaq Sumqayıt teatrı dramaturqun bu ilin sentyabr ayında Başqırdıstanın paytaxtı Ufa şəhərində keçirilən "Tuqanlıq" teatr festivalında iki nominasiya üzrə mükafata layiq görülmüş məşhur "Varlı qadın" komediyasını və "İyirmi ildən sonra" melodramını Sumqayıt tamaşaçılarına təqdim edib.

**GÜNEL**

## "Junior Eurovision-2012"də Azərbaycan adından səslənəcək mahnı müəyyənləşdirilib

Azərbaycanın "Junior Eurovision-2012" təmsilçiləri Ömər Sultanov və Suada Ələkbərovanın ifa edəcəyi mahnı müəyyənləşib. APA-nın müsabiqənin rəsmi internet saytına istinadən yaydığı xəbərə görə, ötən gün müsabiqədə iştirak edəcək 12 ölkənin nümayəndə heyətlərinin rəhbərlərinin iştirakı ilə Amsterdamda toplantı keçirilib. Toplantı iştirakçı ölkələrin şou barədə məlumat almaq və öz təmsilçilərini qeydiyyatdan keçirmək məqsədi daşıyıb. Bildirilir ki, qaydalara görə, azyaşlı istedadların ifa edəcəyi mahnıların 25%-i ingilis dilində, qalanı isə iştirakçı ölkələrin öz ana dilində olmalıdır.

Azərbaycanın mahnısı bütünlükdə ingilis dilində olduğu üçün mahnını qeydiyyatdan keçirmək üçün əlavə iki gün verilib.

Ömər və Suadanın müsabiqədə ifa edəcəyi mahnının Böyük Britaniyada hazırlandığı bildirilir. "Boys and Girls" adlanan mahnı artıq Avropa Yayımları Birliyinə (EBU) təqdim olunub. Azərbaycan bu il "Junior Eurovision"da ilk dəfə iştirak edəcək. Müsabiqədə ölkəmizlə yanaşı — Albaniya, Belarus, Belçika, Gürcüstan, İsrail, Moldova, Niderland, Rusiya, İsveç, Ukrayna və Ermənistan iştirak edəcək.

10-cu ilini qeyd edən müsabiqə "Break The Ice!" (Buzu sındır!) şüarı altında baş tutacaq. Müsabiqəni Evout Qenemans və Kim-Lian Van Der Mey aparacaq.

# Qərb və Şərq ədəbiyyatının iki böyük yolu



*Çingiz Ə.ABDULLAYEV*
**Kulturologiya elmlər doktoru, Bakı Slavyan Universitetinin professoru**

Dünya ölkələrində yaşamış yaradıcı insanlar öz həyat tərzləri ilə bağlı zəngin bir tarixi—kulturoloji iz qoyub getmişlər.

Keçmişdə düzəlmiş əşyalar ,maddi mənbələr yazılı qaynaqlar, çəkilmiş şəkillər əsas kimi bu günə qədər də o dövrkü tarixi kulturoloji aspektdən öyrənməyə imkan verir. Hələ qədim şərqdə mədəniyyət və incəsənətin müxtəlif sahələri inkişaf etmiş, xalqlar öz adət ənənələrini, folklorunu qoruyaraq nəsillərə ötürmüşlər.

Bu baxımdan hər hansı bir xalqın ədəbiyyat tarixinin mükəmməlliyi, əsasən də tarixin dərindən öyrənilməsi ilə bağlıdır. Tədqiq olunan istənilən tarixi dövrün ictimai-siyasi vəziyyəti tam öyrənilməmişsə, ədəbi hadisələr, şair və yazıçı barəsində fikir söylənilməmişsə həmin dövrün ədəbiyyatı barəsində elmi araşdırmalar zəif aparılmışdırsa o dövr yaradıcı insanları haqqında tutarlı fikirlər söyləmək o qədər də asan olmamışdır.

Dünyada baş verən bir sıra dəyişikliklər Azərbaycana da təsirsiz ötüşmürdü. Avropa və Rusiyada baş verən hadisələr Qafqazla yanaşı əsasən də Avropa və Asiyanın ayrıcında yerləşən Azərbaycana təsir etmədən keçə bilməzdi. Bu baxımdan, Avropanın ictimai-siyasi həyatında, eləcə də Rusiyada baş verən dəyişikliklərin özü XIX əsrin I yarısından sonra Rusiya tərəfindən istila edilmiş Azərbaycan gerçəkliyində də əksini tapıb. O dövr Azərbaycan ədəbiyyat və iqtisadiyyat sahəsində XIX əsrin I yarısından etibarən Rusiya və Avropa ilə yaxınlaşırdı. Sərhəd qonşularımız olan İran və Türkiyə ilə əlaqələrə rəğmən Azərbaycan həm Şərq, həm də Qərb tərəfdarları ictimai-mədəni həyatı özündə əks etdirirdi.

Sadalanan proseslər dünya mədəniyyətinin bir hissəsi olan ədəbiyyatın XIX əsrdən başlayaraq yeni mərhələyə qədəm qoyması və inkişafı dövrünü yaşayırdı. Avropa ədəbiyyatında XIX əsrin I yarısında romantizm cərəyanının təkamülü və bu cərəyanın tanınmış nümayəndələrinin ədəbi-tənqidi baxışları ədəbi mühitdə bir sıra yeniliklərin meydana gəlməsinə, yeni janrların formalaşmasının inkişaf etdirilməsi o dövr üçün aktual idi. Nər bir ədəbi metodun, cərəyanın mənşəyini özündən qabaqkılardan götürməsi və özündə yeniliyi ehtiva etməsi təbiidir. Lakin unutmaq olmaz ki, hər bir cərəyan da özlüyündə dünya ədəbi fikrində mövcud olan mövzuların daşıyıcısıdır. Əsər daha əvvəllərə nəzər salsaq, görərik ki, indiyə qədər ümumilikdə çoxsaylı mövzu, süjet xətti mövcuddur ki, onlar daha qədimdən ədəbiyyatda olanlara söykənərək, bir qədər dəyişdirilən süjetlərdir.

Qərblə yanaşı o dövrdə Qədim Şərq incəsənət və ədəbiyyatında əfsanəvi nağıllarla yanaşı, təsviri sənət ,elmi istiqamətlər xalqların bədii yaradıcılığının bəhrəsi olmuşdur.

Xalqların dünya ədəbiyyatı xəzinəsinə bəxş etdikləri söz korifeylərindən Mirzə Fətəli Axundzadə və Çarlz Dikkens yaradıcılıqlarında obrazlı təfəkkür ilə həyatı dərk etmək, məzmunlu formanın vəhdətini öyrənmək əsas şərtlərdən olmuşdur. Öz əsərləri ilə xalq arasında dolğun fikir yaratmaq insanların həyat tərzinə ,onların dünya görüşlərinə qismən də olsa təsir edərək cəmiyyətin o zaman üçün müasir düşüncə tərzi ilə yaşamalarına çalışmışlar.

Azərbaycan ədəbiyyatı tarixində realist ədəbi məktəbin yaranmasında, mükəmməl estetik-fəlsəfi, cərəyan edən məsələlərə kulturoloji aspektdən yanaşma tərzi Tbilisidə Mirzə Şəfi Vazehdən dərs almış M.F.Axundzadəyə məxsus idi. Böyük mütəfəkkirin tənqidi fikirləri də fəaliyyətinin başqa sahələri də demokratik mahiyyət daşıyırdı. Sözün əsl mənasında Mirzə cəmiyyətin şüuruna təsir edəcək sadə və təsirli dildə yazaraq öz fikirlərini kütləyə çatdırmışdır.

Mütəfəkkir geniş və hərtərəfli tədqiqat nəticəsində belə fikir söyləmişdir;

"Avropa filosoflarının təcrübələri və bir çox inkaredilməz həyat dəlilləri sübut etmişdir ki, tənqid, tənqid istehza və məsxərədən başqa pis və yaramaz əməlləri insan təbiətindən heç bir vasitə ilə məhv etmək olmaz"

M.F.Axundzadə və Çarlz Dikkensin 200 illik yubiley tədbirləri ərəfəsində oxucu və teatr tamaşaçılarını öz əsərləri ilə valeh edən bu iki şəxs bir-birindən xəbəri olmadan öz ölkələrində yaşayıb yaratmış, bu gün də unudulmaz mütəfəkkir tövsiyələri ilə yadda qalmışlar.

Əgər Dikkens qərb düşüncə tərzi ilə öz əsərlərini yazırdısa, M.F.Axundzadənin Şəki və Tbilisi həyat tərzində əsasən gələcək Azərbaycan dövlətinin qurulması istiqamətində maariflənmə baxımından misilsiz xidmət göstərərək Azərbaycan dramaturgiyası vasitəsi ilə yaratdığı əsərlərlə tarixin yazılması istiqamətində mühüm rol oynamışdır. Heç təsadüfi deyil ki, M.F.Axundzadə Qafqazın intellektual düşüncəyə malik yazıçısı generator rolunu oynayan şəxs kimi tanınırdı.

Çar Rusiyası dövründə öz yazı üslubu ilə seçilən komediya janrına üstünlük verərək bu müstəvidən cəmiyyətə təsir gücünü göstərirdi. Qeyri adi istedada malik olan Mirzə Azərbaycan ədəbiyyatında xüsusi yeri olan tək yazıçı kimi deyil, həmdə ictimai xadim idi.Heç təsadüf deyil ki, alman tədqiqatçısı Horst Wilfrid Brand 1958-ci ildə yazdığı monoqrafiyada onu şərqin Mülleri adlandırılmışdır.

1886-cı ildə M.F. Axundzadənin "Molla İbrahim Xəlil kimyagər" əsəri alman dilinə tərcümə olunmuşdursa "Vəziri Xani Lənkəran" əsəri 1920-ci isə ildə Leypsiqdə çap olunmuşdursa, digər əsərləri haqqında mütəmadi olaraq Avropa mətbuatında dərc olunan müxtəlif məqalələr oxucuların marağına səbəb olmuşdur. Əlbəttə bütün bu sadalananlar görkəmli yazıçıların 200 illik yubileyleri ərəfəsində istər London, istərsə də Birmingem Şərqi tədqiqatlar institutlularında, istərsə də Azərbaycan Milli Elmlər Akademiyasının bu sahə ilə məşğul olan institutlarının tədqiqatçıları tərəfindən iki dahi yazarın həyat fəaliyyəti, onların yaradıcılıqda oxşar cəhətlərini araşdırmaları böyük maraq kəsb edərdi.

Bəlkə də məqaləni oxuyanlar M.F.Axundzadə ilə Ç.Dikkensin oxşar cəhətləri ilə maraqlanacaqlar. Bu oxşarlıq qələminə aydınlıq gətirmək üçün yazıçı Kamal Abdullanın fikirlərini vurğulamaq istərdim:

Nizamini Dante ilə, Füzulini Şekspirlə, Axundovu Molyerlə, nə bilim, Vəzirovu Ostrovski ilə müqayisə eləmək elə də çətin iş deyil. Bu müqayisə ilkin müqayisədir. Müqayisənin digər mərhələsi isə artıq obyektə daha dərin bələdçilik və intellekt tələb edir. Müqayisə ediləni sən az-çox yaxşı tanıyıb duya bilərsən, müqayisə olanı (başqa mədəni məkanın komponentini) isə hələ tanıyıb duyman lazım. "Duymaq" sözünü təsadüfi işlətmədim. Belə müqayisələrdə yazıçını duymaq əsas şərtdir. Əlbəttə ki, sən qeyd elədiyin kimi, oxucuya bu cür kodlar verərkən həm özümüz-özümüzü daha yaxşı tanıyırıq, həm də böyük kontekstə bir addım daha yaxınlaşmış oluruq. Hər hansı müqayisə, əslində, müqayisə olunanların daha ətraflı dərkinə və xüsusilə, duyumuna gətirir.

Tipoloji şəxsiyyət problemi baxılan şəraiti, mühiti və şəxsiyyətin bir sistem kimi səciyyələndirən və sistem parametrlərinin sabit uyğunluğuna əsaslanan sistemin köməyi ilə həll oluna bilər. Lakin indiyə qədər belə bənzətmə növü mövcud deyil.

Bir çox qüdrətli yazıçılar kimi onların əsərlərində çox dərin psixoloji çarpışmaların mahiyyəti sənətkarlıqla açılır. M.F.Axundzadə və Ç.Dikkensin oxşar cəhətlərini belə bir cümlə ilə vurğulamaq yerinə düşərdi. Bu mövzuya beynəlxalq yanaşma tərzi ilə baxsaq ingilis diplomatiyasında ağırlıq həmişə məharətin üstünə düşür. Belə ki, 1728-ci ildə Volterin "İngiltərə" haqqında məktublarında yazdıqları müasir həqiqətlərə uyğun gəlmir. İngilislər yer üzündə yeganə millətdir ki, kralın hakimiyyətini onun özünə müqavimət göstərərək nizama sala bildi. Nəticədə elə müdrik hökumət təşkil olundu ki, burada monarx xeyirxahlıq eləməyə qadir, ziyankarlıq eləməyə isə gücsüz idi. Fikirləri cəmiyyət tərəfindən də müsbət qarşılanmışdır.

Əlbəttə XIX əsrdə Azərbaycan maarifçi realist ədəbiyyatının və ictimai fikrin formalaşmasında danılmaz xidməti ilə seçilən M.F. Axundzadə beş il ərzində yazdığı altı komediya əsərləri ilə Azərbaycan ədəbiyyatı tarixində milli dramaturgiyanın əsasını qoymuşdur. Lakin onun latın qrafikalı ədəbiyyata keçmək istəyi arzu olaraq qəlbində qalmışdır.

Əgər Dikkensin "Oliver Tvistin macəraları" əsəri Dövlət Gənc Tamaşaçılar teatrında uğurlu quruluşu ilə tamaşaçıları heyran etmişdirsə, tamaşanı oynayan azərbaycanlı aktyor qrupu sanki o mühiti yaşamış, öz məharətləri ilə tamaşaçılarının sevimlisinə çevrilmişlər. Tamaşada səslənən musiqi isə bəstəkar Aydın Əzimovun qərb musiqi çalarlarını özündə əks etdirən dinamik bir üslubda bəstələnərək tamaşaçıların rəğbətini qazanmışdır.

İngilis dramaturgiyasımı Azərbaycan səhnəsində özünə belə möhkəm mövqe tuta bilməsinin və ingilis dramaturqlarının pyeslərinin uzun müddət repertuardan düşməməyinin əsas səbəbi ondan ibarətdir ki, ingilis dramaturgiyasının məzmunu milli teatr sənətinin məzmunu ilə uyğunlaşır. Bir qayda olaraq, Azərbaycan səhnəsi, Azərbaycan gerçəkliyi üçün aktual olan pyeslər milli teatrımızın səhnəsinə yol taparaq, məzmununa görə Azərbaycan gerçəkliyinə adaptasiya olunur. Göründüyü kimi, ingilis dramaturgiyasının Azərbaycan teatrında səhnə təcəssümünün inkişaf tarixi ayrı-ayrı mərhələlərə bölünür və əhatəli şəkildə nəzəri təhlilə cəlb olunur.

Bədii ədəbiyyatda əsas məqsəd yazıçının sözə münasibətidir . Ona görə ki, sözün bətnində heç kəsin təsəvvür edə bilmədiyi maqik bir güc yatmışdır. Reallığı göstərmək istəyən yazıçı sanki əlindəki qələmlə sözü dəfələrlə yonub incələyərək onun bətnindəki sonsuz enerjini aşkara çıxarmışdır. Bu baxımdan istedadlı yazıçının əlində söz muma dönür, özünü hərəkət stixiyyası ilə canlandırır. Belə ki Ç.Dikkens mahir ustalıqla hadisələri inandırıcı təsəvvür edir, yaradılan obrazları özünə məxsusluqla təqdim edirdi.

M.F.Axundzadə "Kamaliddövlə məktubları" əsərini yazaraq o dövr dövlətçilik və demokratik prinsiplərinə toxunaraq "Padşahlığın əsası gərək qanunlar üzərində qurulsun" ifadəsi ilə cəmiyyətə öz mesajını göndərmişdir.

Bədii ədəbiyyatda əsas məqsəd yazıçının sözə münasibətidir . Ona görə ki, sözün bətnində heç kəsin təsəvvür edə bilmədiyi maqik bir güc yatmışdır. Reallığı göstərmək istəyən yazıçı sanki əlindəki qələmlə sözü dəfələrlə yonub incələyərək onun bətnindəki sonsuz enerjini aşkara çıxarmışdır. Bu baxımdan istedadlı yazıçının əlində söz muma dönür, özünün hərəkət stixiyyası ilə canlandırır. Belə ki Ç.Dikkens mahir ustalıqla hadisələri inandırıcı təsəvvür edir, yaradılan obrazları özünə məxsusluqla təqdim edirdi.

İki yüz ilin keçməsinə rəğmən ingilis mədəniyyətinin səfiri və simvolu olan Ç.Dikkensin yubileyi naminə Britisch Council beynəlxalq təşkilatı tərəfindən "Dikkens-2012" ilin layihəsi adlandıraraq, onun həyat və yaradıcılığına həsr olunmuşdur. Bu layihə çərçivəsində dəniz kənarı bulvarda yerləşən "Park Bulvar" da fotosərgi təqdim olunaraq uğurla gerçəkləşmişdir. Eyni zamanda əllidən çox məktəbdə şagirdlər arasında Dikkensə həsr olunmuş esselərin yazılması ilə müsabiqədə uğurla keçmişdir.

Böyük Britaniyanı xarici ölkələrdə təmsil edən Britisch Council təşkilatı ölkələr arasında mədəni və təhsil əlaqələrinin inkişafı naminə bir çox işlər görməkdədir. Belə ki məhz bu layihənin çərçivəsində teatr tamaşaları, sərgilərlə yanaşı, filmlərin təqdimatı da nəzərə alınmışdır.

Əlbəttə müasir dövrümüzdə də Böyük-Britaniya-Azərbaycan əlaqələri iqtisadi-siyasi müstəvidə yaxın olması ilə yanaşı, dostluq telləri isə mədəni-ədəbi əlaqələrdə daha mükəmməl olduğu bugünkü həyatda da öz əksini tapır.

Onlar yaşadıqları dövrdə düşünməzdilər ki, nə vaxtsa qərb və şərqin kəsişində yerləşən dünyada əsasən nefti ilə tanınan bir ölkənin paytaxtında yubiley mərasimləri keçiriləcəkdir. Əlbəttə Bakıda 6 saylı məktəbin önündə şagirdlər tərəfindən ingilis bağında hər iki yazıçının əsərlərindən ibarət kompozisiyanın tərtib olunması Azərbaycan-Böyük Britaniya dostluğunu əks etdirə biləcək ən yaddaqalan anlardan biri olacaq.

Əlbəttə London Universitetlərində təhsil alan azərbaycanlı tələbələri də bu layihə çərçivəsində öz ingilis tələbə yoldaşları ilə birgə hansısa tamaşanı gerçəkləşdirə bilərlər. Hər iki xalqın tarixini əks etdirən onların yaratdıqları "Dədə Qorqud" və "Beuf" dastanları kulturoloji aspektdən xalqların mədəniyyətinin öyrənilməsi baxımından elmi əhəmiyyət kəsb edir. Çox istərdim ki, xalqlar öz maddi sərvətləri ilə deyil mənəvi dəyərləri ilə tanınsınlar. Necə ki, zamanında bunu Çarlz Dikkens və Mirzə Fətəli Axundzadə etmişlər ki, bu gün də onların əsərləri tarix boyu dünya durduqca oxunacaqdır.

# *Adrian Pit:* "Neftçi" üçün çempion olmaq daha asandır"

**"Xəzər Lənkəran"ın rumınıyalı yarımmüdafiəçisi Adrian Pit müsahibə verib.**



**— Ötən mövsümün ən yaxşı yarımmüdafiəçisi seçildin. Bu səndə nə təəssüratlar yaratdı?**

— Çox yaxşı təəssürat yaradır. Təbii ki, mən bunu tək başıma əldə etmədim. Bu, ümumilikdə komandamın qələbəsidir. Deməli, yaxşı nəsə etmişik ki, bu mükafatı əldə etdik. Amma mən hesab eləmirəm ki, bu, mənim oyunuma təsir edəcək. Çünki mən həmişə komandam üçün əlimdən gələni edirəm. Amma bu, tək adamın işi deyil, ümumi komanda yaxşı oynamalıdır ki, müsbət nəticə əldə edəsən.

**— "Xəzər Lənkəran"ın çempionatdakı çıxışı haqqında danışardın. Komandanın çıxışından razısan?**

— Deyə bilmərəm ki, tam razıyam. Çünki biz neçə oyunda səhvlər buraxdıq və xallar itirdik. Hesab edirəm ki, yaxşı oynasaydıq, bu xalları itirməzdik. Amma yenə də iddiamız davam edir. Əlimizdən gələni edib, növbəti oyunlardan xal almağa çalışacağıq.

**— AZAL-la oyunda qələbədən sonra hamı deyir ki, komanda uğursuzluq zolağından çıxıb. Səncə, bu belədir?**

— Təbii ki, qalib gələndə ruhlanırsan, növbəti matçlara daha inamlı hazırlaşırsan. Ancaq mən deməzdim ki, AZAL üzərində qələbə bütün oyunlarda bizə kömək edəcək. Əgər qalib gəlmək istəyirsənsə, çox çalışmalısan. Digər matçlarda qalib gəlməyimiz üçün, gərək, hər bir oyunu ciddiyə alaraq yaxşı hazırlaşaq. Bunu da komanda şəklində etməliyik. Komandaya qalibiyyəti bir nəfər qazandıra bilməz. Bu işdə hamı üzərinə düşən vəzifəni lazımınca yerinə yetirməlidir. Amma bir şeyi dəqiq deyə bilərəm ki, AZAL-a qalib gəldiyimiz matçdakı kimi oynasaq, qalan bütün oyunları uda bilərik.

**— "Simurq" və "Turan"a niyə məğlub oldunuz?**

— "Simurq"la oyundan mənim də xoşum gəlmədi. Çünki çox zəif oyun nümayiş etdirdik. Komanda heç də gözlənildiyi kimi bir oyun ortaya qoymadı. "Turan"la oyunumuz da pis alındı. İkinci hissədə çox zəif oynadıq, səhvlər elədik. Bir oyunçumuzun qırmızı vərəqə almasından sonra oyunumuz daha da pozuldu. Ümumilikdə götürsək, "Simurq", "Turan" və "Sumqayıt"la oyunlarda çox zəif çıxış elədik və hər 3 oyun məni heç qane etmədi.

**— Yeni transferlər haqqında nə düşünürsən. Onlar komandaya xeyir verə biləcəkmi?**

— Əvvəla onu deyə bilərəm ki, bu məsələlərə baş məşqçi baxır. Onlarla bağlı mən dəqiq nə deyə bilərəm ki? Amma əlbəttə ki, yaxşı çalışsalar, ciddi hazırlaşsalar, forma şansı əldə edib komandaya da kömək edə bilərlər. Ola bilsin ki, bəzilərinin komandaya uyğunlaşması üçün zamana ehtiyacı var. Hər halda yaxşı çalışan həmişə forma geyər və komandaya da kömək edər.

**— Fikrincə, bu il çempionluğa layiq komandalar hansılardır?**

— Əgər AZAL matçındakı kimi oynasaq, şübhəsiz, çempion biz olarıq. Ancaq bu gün "İnter"in oyunundan çox xoşum gəlir.

**— Fikirləşirsən ki, bu il ancaq "İnter" çempion ola bilər?**

— Xeyr, ancaq "İnter" yox. Məncə, "Neftçi" üçün çempion olmaq daha asandır. Onlar yaxşı oynayırlar. Bizi də 2:1 uddular. Amma təbii ki, bunlar sadəcə proqnozlardır. Hər bir matç tarixdir. Əvvəlcədən dəqiq fikir söyləmək olmur. Sadəcə meydana çıxıb savaşmaq, mübarizə aparmaq lazımdır. Təbii ki, biz də əlimizdən gələni edəcəyik ki, rəqiblərimizdən daha yaxşı oyun göstərib onlara qalib gələk.

**— Bu yaxınlarda Ruminiya da Türkiyə millisini səfərdə 1:0 uddu. Ölkəndən söz düşmüşkən, səni niyə yığmaya çağırmırlar?**

— Bunu dəqiq bilmərəm. Yəqin ki oyunum xoşlarına gəlmir. Təbii ki, mən də ölkəmin milli komandasında forma geymək istərdim, amma hər şey mənim istəyimlə həll olunmur. Hazırda mənim üçün önəmli olan "Xəzər Lənkaran"dakı fəaliyyətimdir. Bu, mənim üçün millidən daha önəmlidir (sportal.az).

# Premyer Liqanın IX turu Bakıda başlayıb, Lənkəranda bitəcək

Azərbaycan Premyer Liqasında IX turun oyunları oktyabrın 19-21-də keçiriləcək.

Tura "Xəzər Lənkəran" — "Qəbələ" matçı ilə yekun vurulacaq. Bu qarşılaşma rəqiblər arasında 19-cu duel olacaq. İndiyədək baş tutan 18 matçdan 16-sı çempionat, 2-si kubok çərçivəsində keçirilib.

"Qəbələ" ümumilikdə 3 dəfə qalib gəldiyi görüşlərdə 11 dəfə məğlub olub. Daha 4 oyunun heç-heçə bitdiyi görüşlərdə top fərqi də lənkəranlıların xeyrinədir — 30:14.

Çempionatda baş tutan 16 görüşdə "Qəbələ" 3, "Xəzər Lənkəran" 10 dəfə 3 xala sevinib. 3 dəfə komandalar hərəyə 1 xal əldə ediblər. Burada top fərqi cənubluların 26:12-lik üstünlüyünü göstərir. "Qəbələ" 10-cu dəfə yollandığı səfər oyunlarında 1 dəfə qalib gəlib, 2 dəfə heç-heçə etdiyi rəqibə 6 dəfə uduzub. Lənkəranda 7 qola sevinən "Qəbələ" 17-ni buraxıb.

— "Xəzər Lənkəran"la əvvəlki 18 oyunda 88 futbolçu "Qəbələ" formasında çıxış edib.

— Abdulkader Kamara və Pavel Doroşev 9, Lyubo Baranin 8 matçda lənkəranlılara qarşı oynayıb.

— Bir oyunlarda Abdulkader Kamara və Pavel Doroşev 810, Lyubo Baranin 720 dəqiqə meydanda olub.

— "Qəbələ"nin 12 futbolçusu "Xəzər Lənkəran"ın qapısına qol vurub. Onlardan ikisi — Lyubo Baranin və Turnike Aptsiauri 2 dəfə fərqlənib.

— Abdulkader Kamara, Milan Antiç, Deon Barton, Viktor Mendi, Anatoli Ostap, Aleksandr Çertoqanov, İqor Melnik, İbrahim Hüseynov, Tomaş Stolpa və Camal Məmmədov "Xəzər Lənkəran"ın qapısına 1 qol vurub.

— Cənublularla matçlarda 2 futbolçu — Aleksandr Çertoqanov və Zurab Mamaladze qırmızı vərəqə alıb.

— 31 futbolçu bu matçlarda vərəqə ilə cəzalanıb. Vurğun Hüseynov 5, Aleksandr Çertoqanov 4 dəfə önündə vərəqə görüb.

— "Qəbələ" futbolçuları ümumilikdə 2-si qırmızı olmaqla 48 dəfə vərəqə ilə cəzalanıb.

— "Xəzər Lənkəran"la oyunlarda 7 qapıçı meydana çıxıb.

— Cahangir Həsənzadə 1, Qrem Smit 2, Zurab Mamaladze və Nadir Şükürov hərəyə 3, Elnar Kərimovla Xəyal Zeynalov jərəyə 4, Pavel Doroşev 13 qol buraxıb.

— "Qəbələ" — "Xəzər Lənkəran" oyunlarında 1 avtoqol qeydə alınıb. İrakli Vaşakidze 2008-ci il aprelin 9-da ev oyununda "Qəbələ" azarkeşlərini avtoqolla məyus edib.

— "Xəzər Lənkəran"la oyunlarda rəqib qapısına 2 penalti təyin olunub. Anatoli Ostap dəqiq olubsa, Samir Zərgərov bu şansdan yararlanmayıb.

— "Qəbələ"nin qapısına təyin olunan yeganə penalti isə Pavel Doroşevin qapısına qolun vurulması ilə nəticələnməyib.

19 oktyabr (cümə)
"Neftçi" — "Kəpəz"
İ.Qayıbov adına Bakıxanov qəsəbə stadionu, 16:00
20 oktyabr (şənbə)
"Turan" — AZAL
Tovuz şəhər stadionu, 16:00
"Qarabağ" — "Bakı"
T.Bəhramov adına Respublika stadionu, 16:00
"İnter" — "Simurq"
"Şəfa" stadionu, 18:00
21 oktyabr (bazar)
"Sumqayıt" — "Rəvan"
M.Hüseynzadə adına Sumqayıt şəhər stadionu, 16:00
"Xəzər Lənkəran" — "Qəbələ"
Lənkəran şəhər mərkəzi stadionu, 17:15

# PFL-dən təqvimdə növbəti dəyişiklik

Azərbaycan Kubokunun oyunlarının keçirilməsi ilə əlaqədar olaraq cari mövsümün təqvimində dəyişikliklər edilib.

Azərbaycan Kubokunun 1/16 final mərhələsinin "Qala" — "Kəpəz" oyunu oktyabrın 22-də keçiriləcək. I Divizionun VII turunun "Qala" — "Şuşa" və "Lokomotiv" — "Qaradağ Lökbatan" oyunları isə 21 oktyabrdan 19 oktyabr tarixinə keçirilib.

# Azərbaycan Velosiped İdmanı Federasiyasının kuboku uğrunda yarışlara yekun vurulub



Oktyabrın 14-də Gəncə və Naftalan şəhərləri, eləcə də Samux və Goranboy rayonlarının ərazilərində Azərbaycan Velosiped İdmanı Federasiyasının kuboku uğrunda çoxgünlük ötüşmələr üzrə yarışlar başa çatıb. 4 gün davam edən bu yarışlarda velosipedçilər dörd mərhələdə 426 km məsafə qət ediblər. Fərdi və qrup şəklində yarışlara müxtəlif yaş qruplarından olan 50-dək idmançı, eləcə də qonşu Gürcüstandan olan iki komanda qoşulub.

Dörd mərhələnin nəticələrinə görə U-15 yaş kateqoriyası üzrə ötüşmələrdə Maksim Natereskov qalib olub. Tural Xanmedov ikinci, Bakir Dadaşov isə üçüncü yeri tutub. U-17/Gənclər yaş kateqoriyası üzrə ötüşmələrdə Ruslan Hüseynov bütün rəqiblərini qabaqlayaraq turnirin qalibi olub. Xosiauri Dimitriy (Gürcüstan) ikinci, Elgün Əlizadə isə üçüncü yerləri tutublar. Elit/U-23 yaş qurupu üzrə Samir Cəbrayılov bütün mərhələlərdə hamıdan çox xal toplayaraq birinci yerə çıxıb. Aqşin İsmayılov ikinci, Gürcüstan təmsilçisi Georgi Nadiradze isə üçüncü olub.

Beləliklə, ölkəmizdə velosiped idmanının populyarlaşdırılmasına xidmət edən daha bir turnir başa çatıb.

Məlum olduğu kimi, 2012-ci ilin may ayında ölkəmizdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş ilk beynəlxalq velosiped turu keçirilmiş, bu turda 17 ölkədən 20 komanda iştirak etmişdi.

Bundan bir qədər sonra, iyun ayında Masallı rayonunda velosiped idmanı üzrə bütün yaş qruplarından ibarət yığma komandaların ötüşmələri və Qəbələ rayonunda velosiped idmanının şose növü üzrə Azərbaycan çempionatı, sentyabr ayında isə Xaçmaz rayonunda velosipedçilərin çoxgünlük ötüşmələr üzrə Azərbaycan çempionatı keçirilib.

Azərbaycan velosipedçilərindən ibarət milli komanda bu il ilk dəfə olaraq Niderlandda təşkil olunan 48-ci Avropa Velosiped Turunda və Avropa çempionatında da çıxış ediblər. Milli komandamızın üzvü Elçin Əsədov isə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ilk dəfə velosiped idmanı üzrə dünya çempionatına vəsiqə qazanaraq bu mötəbər turnirdə iştirak edib.

Şübhə yoxdur ki, bütün bunlar ölkəmizdə velosiped idmanının daha da inkişaf etdirilməsi və kütləviləşdirilməsi, əhalinin, xüsusilə də gənclərin bu idman növünə olan marağının artmasına öz müsbət təsirini göstərəcəkdir.

# "Sumqayıt"ın illik büdcəsi açıqlandı

"SİMURQ" LİDERLİYƏ LAYİQ DEYİL"



"Sumqayıt"ın illik büdcəsi barədə klubun prezidenti Kamran Quliyev məlumat verib. "90+sual-cavab" adlı tədbirdə çıxış edən komanda rəhbəri, "Sumqayıt"ın illik büdcəsinin 1,5 milyon manat təşkil etdiyini bildirib. Sumqayıt klubunun baş məşqçisi Bernhard Raab maraqlı açıqlamalar verib. Alman mütəxəssis "Simurq"un liderliyi haqda danışıb və zaqatalalıların birinci pilləyə layiq olmadığını söyləyib: "Simurq" iddialı klubları məğlub etsə də, liderliyə layiq deyil. Ümumiyyətlə, mən bu komandanı birinci pilləyə layiq görmürəm".

Qeyd edək ki, "Simurq" 8 oyundan 18 xalla hazırda turnir cədvəlinə başçılıq edir.

"Sumqayıt"ın təcrübəli yarımmüdafiəçisi Ceyhun Sultanov Azərbaycanda Avropa səviyyəli futbolçu olmadığını deyib: "Azərbaycanda Avropa klublarında oynayacaq futbolçu görmürəm. Biz futbolu yaşatmaq istəyirik. Amma gənclər öz üzərində işləmir. Bunun səbəbini bilmirəm".



*Zeynalabdin NOVRUZOĞLU*

### UCUZ ÖLÜM AXTARIRSAN

Ucuz ölüm axtarırsan,
İnamın yoxdu sabaha.
Daş atırsan, baş yarırsan,
Ölümlər var baha-baha.

Dağdan ağır ölümlər var,
Qanlı torpaq qiymətinə.
Qızılquş tək qəfil qonar,
Mərd oğulun qamətinə.

Ölən şəhid, qalan qazi,
Budur ölüm, budur həyat.
Onlar haqdan alıb dərsi,
Sənə qismət deyil heyhat!

Ucuz ölüm axtarırsan,
Axtar döngədə, dalanda.
Axtarıb, bir gün taparsan
Ölümlər ucuz olanda.

### ŞAİRLƏR YARIMÇIQ ÖMÜR YAŞAYIR

Əcəllə ölməyi bacarmır, nədi?
Şairlər yarımçıq ömür yaşayır.
Çoxu heç bilmir ki, qocalmaq nədi?
Şairlər yarımçıq ömür yaşayır.

Otuzu çox bilir, qırxa bəs deyir.
Şahın qabağında sözü tərs deyir.
Sözünü qaytarmır, doğra, kəs deyir.
Şairlər yarımçıq ömür yaşayır.

Dərisi soyulan özü diri var,
Çoxunun alnında güllə yeri var.
Şair doğulan da ölümdən qorxar?
Şairlər yarımçıq ömür yaşayır.

Lap uşaq ömrü də yaşaya bilər,
Ömrünü təzədən başlaya bilər.
Öləndən sonra da danışar, gülər.
Şairlər yarımçıq ömür yaşayır.

Yüz əsər yaradıb dastan qoşsa da,
Yaşı lap doxsanı, yüzü aşsa da,
Nə qədər, nə qədər çox yaşasa da,
Şairlər yarımçıq ömür yaşayır,
Şairlər yarımçıq ömür yaşayır.

### SONDA MAT GƏLİR BURDA

Dünya şahmat taxtası,
Fiqurlar iri, xırda.
Hər kəsin öz xanası,
Öz dünyası var burda.

Piyada düz yol gedir,
Bir yolu, yüz yol gedir.
Ayaq gedir, qol gedir,
Xırman sovrulur burda.

At yerində oynayır,
Fillər əzir, tapdayır,
Toplar meydan sulayır,
Meydan dar gəlir, burda.

Vəzir vəkil aldadır,
Hiyləgərlik qaydadır.
Şahın qəzli sondadır,
Sonda mat gəlir, burda!

### DARVİN VƏ ZAMAN

Bu məşhur formulu,
Darvin yaradıb.
Deyib ki, heyvandan
İnsan yaranıb.
Harda, nə zaman?
"Şüurlu əməklə
məşğul olan an".
Əsirlər dolanıb,
Dəyişib dövran,
Sonra da insandan yaranıb heyvan
Nə zaman, harada?
İnsan ilk yalanı qırıldadanda..

### SALAM

Salam insan dilində,
İlk sözdü, ilk kəlmədi.
İlk inam, ilk etibar,
Salam-əleykümlədi.
Salamla açılır,
Hər gün, hər səhər.
Salamla dolanır,
Hərə birtəhər.
Bəzisi onunla
ticarət edir.
Bəzisi salama
qənaət edir.
Onu saman kimi,
Sovuran da var.
Salamla bir qəlbi,
Ovudan da var.
Qədrini uca tutan,
Salama and içəmmir.
Bəzən canından keçən,
Bir salamdan keçəmmir.
Alınmayan bir salam,
Əsrlərə yükdü, yük.
Füzuli salamını,
Almaq özü böyüklük.
Beş yüz ildi bu salam,
Cavabını gözləyir.
Beş yüz ildi bu salam,
Rüşvətxoru izləyir.
Salamın yolu ayrı,
Rüşvətin yolu ayrı.
Salam ki, rüşvət deyil,
Bunu anlayaq barı.
Salam imza kimidi
hər kəsin öz salamı.
Salam çörək kimidi
var halalı, haramı.
Halalı harama,
Qatmasan, SALAM!
Çörəyi bərk tutub,
Atmasan, SALAM!

## Bildiriş

Oktyabrın 17-də sat 14.00-da "Bayatı" kitab mağazası Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda şair Sədi Fətəlizadənin "Təmsillər" və "Üç dövlətə bir sual" kitabının imza gününü keçirəcək. Şair qələm dostlarını və poeziyasevərləri tədbirə dəvət edir.

# *Ərdoğan:* "Aleks "Fənərbağça"dan belə getməməli idi"



"8 il Türkiyədə oynayan və vətəndaşlıq almaq üçün klub prezidenti ilə yanıma gələn Aleksin sonda komandadan belə getməsini mən də arzu etməzdim. Aleks "Fənərbağça"dan belə getməməli idi". Bu sözləri Türkiyənin baş naziri Rəcəb Tayyip Ərdoğan deyib.

Aleksin heyranı olduğunu bildirən nazir "Fənərbağça"dakı çıxışını dəyərləndirib: "Aleksin hər il "Fənərbağça"da vurduğu qollarının sayına baxsaq, orta hesabla 20-yə yaxın qola imza atdığını görərik. Bu, olduqca önəmli bir göstəricidir. Aleksin iki uşağı Türkiyədə dünyaya göz açıb. Braziliyalı futbolçunun ailəsi bununla fəxr edən insanlar idi.

Aleks Türkiyəyə yerləşdikdən sonra burada idmana, futbola xidmət etmək istəyirdi. Ancaq təəssüf ki, işi yarımçıq qaldı. Bununla belə, Aleks 2016-cı ildə Braziliyada keçiriləcək olimpiya oyunlarında Türkiyənin orada bir təmsilçisi ola bilər. Aleks mənə bu təklifi məmnuniyyətlə qəbul edəcəyini söylədi. Ona bundan sonrakı həyatında uğurlar arzulayıram".

Qeyd edək ki, 2004-cü ildən "Fənərbağça"da çıxış edən Aleks keçirdiyi 242 oyunda 137 qola imza atıb.

# *Blatter:* "Ronaldo və Messi arasında seçim etmək çətindir"



FİFA prezidenti Yozef Blatter yenidən Kriştiano Ronaldo və Lionel Messi müqayisəsi haqda danışıb. Blatter bu iki futbolçu arasında seçim etməyin çətin olduğunu bildirib: "Həm Ronaldo, həm də Messi fərqli bir fiqurdurlar. Bu iki futbolçunu izləmək şansına sahib olduğumuz üçün çox xoşbəxtəm. Təbii ki, bu iki futbolçu arasında seçim etmək çox çətindir. Ancaq ikisi də dünyanın ən yaxşı futbolçusudur. Onsuz da "Qızıl top" mükafatının qalibini biz seçmirik. Bu, Futbol Federasiyaların səsləri əsnasında müəyyənləşir. Düşünürəm ki, bu mükafatı layiqli futbolçu qazanacaq".

# *Benzema:* "Zidan kimi olmaq istəyirəm"



Fransa milli komandasının hücumçusu Kərim Benzema əfsanəvi futbolçu Zinəddin Zidan haqda xoş sözlər deyib. UEFA-nın rəsmi saytına danışan Benzema Zidan kimi olmaq istədiyini bildirib: "Zidanla qarşılaşdığımda xəyalım gerçəkləşdi. Onunla tanış oldum və söhbət etdim. Həmin anda çox xoşbəxt idim. Daimi olaraq Zidandan məsləhətlər istədim və ondan çox şey öyrəndim. Təbii ki, Zidandan fərqli bir karyeram ola bilər. Ancaq mən Zidan kimi olmaq istəyirəm".

Qeyd edək ki, Benzema eyni zamanda braziliyalı sabiq futbolçu Ronaldonu dünya tarixinin ən yaxşı oyunçusu adlandırıb.

# Futbolçular öldürüldü

Hondurasda futbol oynayan qruplara qarşı həyata keçirilmiş silahlı hücumlarda 11 nəfər həlak olub. Honduras rəsmiləri hücumların Olanço bölgəsindəki meydançalarda futbol oynayan 3 ayrı qrupa qarşı həyata keçirildiyini, nəticədə yaşları 18-25 arasında olan 11 gəncin həlak olduğunu bildiriblər. Hadisənin səbəbləri barədə məlumat verilmir.

**Materialları Anar Cəfərsoy hazırladı**

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:3541
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.